Günəş Şərqdən doğur!

№ 106 (5387), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 18 iyun 2021-ci il (cümə)



## Kapitan Kəlbəcərdə göldə boğulub

(Səh.8)



## İsmarıc vaxtında verildi

Növbəti hədəfimiz Xankəndidir

**Şuşada Prezident İlham Əliyevlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında maraqlı dialoq olub.**

Dövlət başçımız əli ilə Xankəndini göstərib və Ərdoğanın "Otel ordadır" sualına əminliklə "Orda da olacaq" deyib. Əlbəttə, bu, həm də siyasi mesajdır.

(səh.2)

## Türkiyə faktoru Ermənistanın əl-qolunu bağladı




"Seçkilərdən sonra yekun sülh müqaviləsinin hazırlanmasına başlanılacaq"

(səh.5)

# Minalı ərazilərin xəritələri verilməlidir



## Rusiya XİN Ermənistan tərəfinə çağırış edib

(səh.2)



# Danışmaq olar, barışmaq yox!

Bayden görüşdə Putinin ən zəif yerindən vurub

(səh.3)

### Əsas məsələ Zəngəzur dəhlizinin açılmasıdır

"Altılıq platforması" alınsa, regiona uzunmüddətli sülh gələcək

(səh.6)

### Azərbaycan-Türkiyə əlaqələrində yeni mərhələ başladı

Şuşa Bəyannaməsi Cənubi Qafqazın geosiyasi dizaynı dəyişdi

(səh.7)

### İranda seçkilərin favoriti bəllidir

Mühafizəkarların lideri Rəisi qalib olacaq

(səh.10)

### Son sutkada ölüm faktı qeydə alınmayıb

Azərbaycanda daha 48 nəfər koronavirusa yoluxub

(səh.8)

# Minalı ərazilərin xəritələri verilməlidir

## Rusiya XİN Ermənistan tərəfinə çağırış edib




**Ermənistan-Azərbaycan sərhədində baş verən hadisələr onun beynəlxalq-hüquqi rəsmiləşdirilməsinin olmaması ilə bağlıdır.**

Bu barədə Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib.

M.Zaxarova, Rusiyanın vəziyyətin sabitləşməsinə yönəlmiş aktiv vasitəçilik səyləri göstərməyə davam etdiyini deyib: "Bakı və Yerevanla Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, sərhəd xidmətləri xətti ilə sıx koordinasiya qurulub.

Problemin davamlı və uzunmüddətli həlli yolunu iki ölkə arasında sərhədlərin delimitasiyası üzrə işlərin tezliklə başlanmasında, demarkasiya prosesinin aparılmasında görürük. Biz bu prosesə ən fəal yardım göstərməyə hazır olduğumuzu təsdiq edirik", - deyə Rusiya XİN-in rəsmi nümayəndəsi əlavə edib.

M.Zaxarova həmçinin Rusiyanın Azərbaycan tərəfinin iyunun 12-də 15 erməni hərbçini Ermənistana qaytarmasını alqışladığını da vurğulayıb: "Eyni zamanda, digər humanitar məsələlərin, o cümlədən də minaların təmizlənməsi və minalı ərazilərin xəritələrinin verilməsi ilə bağlı məsələlərin həll olunmasının vacib olduğunu düşünürük".

## Prezident həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb



**Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamla 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Sərəncama əsasən "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2021-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılırlar.

Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görməlidir.

## Daha 3 erməni hərbçinin cəsədləri tapılıb

### Qalıqlar Xocavənd rayonu ərazisində aşkarlanıb

**Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə aparılan axtarış nəticəsində dünən daha 3 erməni hərbçinin cəsədinin qalıqları tapılıb.**

APA-nın "Sputnik Armenia"ya istinadən verdiyi məlumata görə, qalıqlar Xocavənd rayonu ərazisində aşkarlanıb.

Qalıqları tapılanlar Qarabağdakı döyüş əməliyyatlarının iştirakçıları olub.

Meyiti tapılanların kimliyinin müəyyənləşdirilməsi üçün məhkəmə ekspertizası aparılacaq.

*Qeyd edək ki, Ermənistan tərəfinin açıqlamasına görə, Qarabağda hərbi əməliyyatlar dayanandan bəri işğaldan azad olunmuş Azərbaycan torpaqlarında ümumilikdə 1 579 erməni hərbçinin cəsədi və ya qalıqları tapılaraq, Ermənistana təhvil verilib.*

## Rusiya XİN Şuşa Bəyannaməsinə münasibət bildirib

**"Biz Azərbaycan və ya Ermənistanın üçüncü tərəflərlə ikitərəfli münasibətlərini Dağlıq Qarabağ mövzusu ilə qarışdırmağı düzgün hesab etmirik. Sonuncu Azərbaycan-Türkiyə yüksək səviyyəli təmaslarına məhz bu əsasda baxırıq".**

APA-nın Moskva müxbirinin xəbərinə görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə Azərbaycanla Türkiyə arasında imzalanmış müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinə münasibət bildirərkən deyib.

"Hesab edirik ki, regionda ikitərəfli əlaqələr, o cümlədən hərbi əlaqələr digər dövlətlərə qarşı qurulmamalıdır. Bakı ilə İrəvan arasında, o cümlədən İrəvan-Ankara dialoqunun normallaşmasına yönəlmiş bütün addımları dəstəkləyirik. Cənubi Qafqazda əməkdaşlıq mehriban qonşuluq prinsipi və əlbəttə ki, regionun bütün ölkələrinin maraqları nəzərə alınmaqla inkişaf etməlidir", - deyə Rusiya XİN rəsmisi vurğulayıb.

## "Bayden və Putin gözlədikləri nəticələri əldə etdilər"

### Brayza: "Zirvə görüşü rəsmi Vaşinqton və Moskva arasında zahiri gərginliyi bir qədər azalda bilər"

**"ABŞ Prezidenti Co Bayden və Rusiya Prezidenti Vladimir Putin Cenevrə zirvə görüşündə özləri üçün gözlədikləri nəticələri əldə etdilər".**



Bu fikirləri "Report"a ABŞ Atlantik Şurasının böyük elmi işçisi, beynəlxalq ekspert Metyu Brayza iyunun 16-da ABŞ və Rusiya prezidentləri arasında Cenevrədə keçirilmiş zirvə görüşünü şərh edərkən bildirib.

Brayza hesab edir ki, Vladimir Putinin nöqteyi-nəzərindən zirvə görüşünün gözlənilən nəticələri əldə edilib. Söhbət Rusiyanın qlobal səviyyəsinin və strateji əhəmiyyətinin artırılmasından gedir ki, bu, həm də daxili siyasət üçün faydalı ola bilər.

"Hesab edirəm ki, Co Baydenin nöqteyi-nəzərindən də zirvə görüşünün gözlənilən nəticələri əldə edilib. Prezident Bayden ciddi məsələləri qaldıracağını demişdi və o, bu fikirləri çatdırmağı bacardı. Görüşdən çıxarkən fikir mübadiləsinin nə dərəcədə konstruktiv keçdiyini bir neçə dəfə vurğuladı. Putin də eyni sözləri dedi: "Bəli, fikir mübadiləsi konstruktiv keçdi". Bu səbəbdən, nəticə Bayden üçün də uğurludur", - o əlavə edib.

Zirvə görüşündən öncə Baydenin Rusiya ilə sabit və proqnozlaşdırılan münasibətlərin təmin olunması ilə bağlı qarşıya qoyduğu məqsədə gəlincə, Brayza hesab edir ki, Cenevrə görüşünün bu münasibətlərə gətirib çıxaracağından danışmaq üçün hələ çox tezdir.

Onun fikrincə, ilk baxışdan iki ölkə arasında münasibətlər kənardan sakit görünsə də, lakin müəyyən gərginlik qala bilər: "Düşünürəm ki, prezidentlər arasında cəmi bir görüş ABŞ-ın Rusiyaya qarşı sanksiyalarını heç cür yumşalda bilməz".

"Hesab edirəm ki, zirvə görüşü rəsmi Vaşinqton və Moskva arasında zahiri gərginliyi bir qədər azalda bilər. Zahiri dedikdə, mən üzdən görünən gərginliyi nəzərdə tuturam", - o əlavə edib.

Brayza həmçinin hesab edir ki, prezident Baydenin Cenevrə görüşündəki çıxışı Donald Trampın Helsinki görüşündəki çıxışından xeyli yaxşı idi. Onun fikrincə, prezident Bayden əvvəlcə ABŞ-ın ən böyük müttəfiqi olan Böyük Britaniyaya yollanaraq "Böyük yeddilik" çərçivəsində tam həmrəyliyini ifadə etməklə, daha sonra Avropa Birliyi rəhbərlərinin və NATO-nun zirvə görüşlərinə qatılmaqla, habelə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşməklə zirvə görüşünə hazırlıq üzrə böyük iş görüb.

O hesab edir ki, son nəticədə Bayden Putinə öz fikrini çatdıra, Putin isə Rusiyanın dünya arenasındakı səviyyəsini yüksəldə bilib.



## İsmarıc vaxtında verildi

### Növbəti hədəfimiz Xankəndidir

**Şuşada Prezident İlham Əliyevlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında maraqlı dialoq olub.**

Dövlət başçımız əli ilə Xankəndini göstərib və Ərdoğanın "Otel ordadır" sualına əminliklə "Orda da olacaq" deyib. Əlbəttə, bu, həm də siyasi mesajdır.

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında bunun təsadüfi olmadığını deyib:** "Ərdoğan müdrik siyasətçidir. O, nəyin harda olduğunu bilmir? Əlbəttə, bilir. Bu, sadəcə Rusiyaya və Ermənistana mesaj idi. Liderlər növbəti hədəfin Xankəndi olduğunu bildirdilər. Əslində ismarıc vaxtında verildi. Çünki cəmiyyətdə Xankəndi ilə bağlı narahatlıq var idi. Hətta ola bilsin, senari əvvəlcədən hazırlanıb".

**Ə.Məmmədli Xankəndiyə qayıtmağın yolunu da izah edib:** "Bu, Ermənistanın mövqeyindən asılıdır. Eyni zamanda Azərbaycan və Türkiyə Rusiyaya təzyiq göstərməlidir. Əgər biz Moskvanın başının üzərindəki "Damokl qılıncı" olsaq, Kreml güzəştə gedəcək. Əks halda isə özü şərtlərə diktə etməyə çalışacaq".

**Kənan**



“ABŞ Rusiya və Çinin maraqlarının toqquşmasından fayda əldə edə bilərdi”

# Danışmaq olar, barışmaq yox!

## Bayden görüşdə Putinin ən zəif yerindən vurub

İyunun 16-da ABŞ və Rusiya prezidentləri Co Baydenlə Vladimir Putin arasında geniştərkibli və məhdud tərkibdə baş tutan görüşlər fasilələrlə 4 saat yarım davam edib. Görüşdən bir qədər sonra isə Putinin mətbuat konfransı keçirilib. Rusiya rəhbəri bildirib ki, bir neçə ay bundan əvvəl qarşılıqlı olaraq geri çağırdıqları səfirlərin yenidən vəzifə başına qayıtmalarına dair razılıq əldə edilib:

”ABŞ Prezidenti Co Baydenlə görüş yaxşı keçdi. Strateji sabitlik, kibertəhlükəsizlik, regional münaqişələr, ticarət münasibətləri, eləcə də Arktikada əməkdaşlığı müzakirə etdik”. Co Bayden isə Cenevrəni tərk etməzdən öncə bunları söyləyib: ”Rusiya var gücüylə böyük dövlət statusunu saxlamağa çalışır. Amma Rusiya hazırda çox çətin vəziyyətdədir. Çin onlara təzyiq edir”. Liderlərin açıqlamaları görüşün nisbətən normal keçdiyini göstərir. Vaşinqton və Moskva ”qırmızı xətləri” keçməmək şərti ilə düşmənçiliyi bir qədər səngitmək qərarına gəlirlər, amma barışmırlar. Çünki xarici təhdidləri hər iki tərəf nəzərə almalıdır. ABŞ-ın əsas hədəfi Çindir, Rusiya isə Uzaq Şərqə uzanan strategiyada ”təhdid obrazı” rolunu oynayır.

**“Putinlə Bayden arasında bu razılaşmalar oldu”**

*Rusiya Federasiya Şurasının vitse-spikeri Konstantin Kosaçev deyib ki, Putinlə amerikalı həmkarı Co Baydenin görüşünü səmərəli hesab etmək olar:* ”Konkret nəticələrə bənzəyən şey - səfirlərin geri qaytarılması, strateji təhlükəsizlik, kibertəhlükəsizliyə dair məsləhətləşmələrdir. Bunlar görüşün məhsuldar olduğunu düşünmək üçün kifayətdir”.

**“Putin-Bayden görüşündə ən böyük nailiyyət...”**

*Rusiyalı siyasi ekspert Sergey Orconikidze isə bildirib ki, Putin və Baydenin nüvə müharibəsinin qalibinin olmadığını təsdiqləməsi sammitin ən vacib nailiyyətidir:* ”Bu, zirvənin ən vacib nailiyyətidir. Bu günün reallığında geosiyasi fikir ayrılıqlarına baxmayaraq, dövlətlərdən belə bir formulada razılaşma əldə etdik. Bütün digər məsələlər həll edilə bilər. Sülh şəraitində bütün mövzularda danışıqlar mümkündür”.

**“Putin Baydenə rəqib deyil, təhlükədir!”**

*Rusiyalı politoloq Dmitri Mixayliçenko Putin-Bayden görüşünü şərh edərkən deyib ki, sammit və ona qədərki dinamika göstərdi ki, Rusiya Amerika siyasətinin dəyişikliklərindən asılıdır.* Onun sözlərinə görə, Putin Rusiyası Co Bayden və Kamala Harris administrasiyası üçün uzunvədəli rəqibdən daha çox təhdiddir: ”Strateji rəqib isə Çindir. Bayden seçkiləri antirusiya ritorikası hesabına qazanıb. Bu dövr daxili siyasət, Donald Tramp üzərində qələbə üçün lazım idi. Lakin Rusiya ilə münasibətlərə ciddi zərbə vurdu. İndi isə bu münasibətlərin bərpasının zamanı çatdı. Demokratlar və Vladimir Putini sevməyən eks-prezident Barak Obama Rusiyaya anidən hücum etməyi gözə ala bilməzlər. Çünki belə addım Rusiya-Çin İttifaqının güclənməsi üçün bir platforma yaradır və bu, ABŞ-da geosiyasi səhv olaraq qəbul edilə bilər”.

**“Baydenlə görüşün gərginliyi tam aradan qaldıracağını söyləmək yersiz olardı”**

***Liderlərin görüşünü ”Şərq”ə analiz edən politoloq Azər Rəşidoğlu deyib ki, ABŞ Prezidenti Co Bayden Rusiya rəhbəri Vladimir Putinlə keçirdiyi görüşün tonunun ”yaxşı” və ”pozitiv” olduğunu bildirib.*** Bayden deyib ki, Putinə insan hüquqları ilə bağlı narahatlıqlarını dilə gətirdiyini və bundan sonra da dilə gətirməyə davam edəcəyini söyləyib: ”Bayden Putini zəif yerindən, insan haqları nöqtəsindən vurub. Ümumiyyətlə, Bayden Rusiya ilə münasibətlərin aydınlaşmasını arzulayır. Lakin görünən budur ki, Baydenin Rusiya ilə bağlı hər hansı strateji planı yoxdur və o, Moskvaya münasibətdə Barak Obama dövrünə qayıtmaq istəyir. Lakin Putin özünü dünyanın əsas gücü hesab edir. Odur ki, Baydenlə görüşün gərginliyi tam aradan qaldıracağını söyləmək yersiz olardı. Çin bu gün dünyanın əsas güc mərkəzinə çevrilməyi hədəfləyib. Ola bilər ki, Bayden-Putin görüşündə əsas müzakirə predmeti ABŞ-Rusiya-Çin üçbucağı olub”.

**“Bayden Pekin və Moskva arasında problem yaratmaq istəyir”**

*Siyasi şərhçinin sözlərinə görə, zəifləməkdə olan Rusiyanı Çin əvəz edə bilər:* ”Bayden və Putinin müzakirə edəcəyi əsas məsələnin bu amil olduğunu ehtimal edə bilərik. Unutmaq olmaz ki, ABŞ və Rusiya aparıcı nüvə dövlətləridir və strateji təhlükəsizlik və sabitliyə görə əsas məsuliyyət daşıyırlar. ABŞ, əlbəttə ki, Rusiya və Çinin maraqlarının toqquşmasından fayda əldə edə bilərdi. Odur ki, Bayden Pekin və Moskvanın arasında problem yaratmaq üçün əlindən gələni edir. Rusiya və Çin ABŞ-la münasibətlər mövzusunda mütəmadi məsləhətləşmələr aparırlar. Moskva və Pekin öz münasibətlərini elə səviyyəyə qədər inkişaf etdiriblər ki, bu, demək olar ki, ikitərəfli əməkdaşlığın bütün sahələrini əhatə edir”.

**İsmayıl Qocayev**

# Ərdoğan Qərbə son vəziyyəti anlada bildi

## *Şuşada konsulluğun açılması Türkiyənin Qarabağda mövcudluğuna açıq işarədir*



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Brüsseldə ABŞ Prezidenti Co Baydenlə, Fransa rəhbəri Emmanuel Makronla görüşüb. Eləcə də NATO-ya üzv olan digər ölkələrin başçıları ilə bir araya gələrək Qarabağla bağlı prosesləri müzakirə edib".

***Bunu ”Şərq”ə açıqlamasında ”Atlas” Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib.*** Ekspertin sözlərinə görə, görünən odur ki, Ərdoğan Qərbdəkilərə başa sala bilib ki, siz Rusiyanı Cənubi Qafqazda təkbaşına buraxmaq istəsəniz, Rusiya bir müddət sonra sizi Cənubi Qafqaza buraxmayacaq: ”Ərdoğan məsuliyyəti öz üzərinə götürərək Cənubi Qafqazda Rusiyanın dominantlığına icazə vermək niyyətində olmadığını göstərməyə çalışır. Türkiyə liderinin Bakıya səfəri və oradan quru yolla Füzuliyə və Şuşaya səfəri diplomatik mesaj idi. Bununla Ərdoğan demək istədi ki, Türkiyə Azərbaycanın yanındadır”.

*Siyasi şərhçinin fikrincə, Şuşada Türkiyə konsulluğunun açılması məsələsinin reallaşması Türkiyənin Qarabağda birbaşa mövcudluğuna açıq işarə kimi qiymətləndirilə bilər:* ”Şuşa Bəyannaməsi Türkiyənin təkcə Cənubi Qafqazda deyil, eyni zamanda Mərkəzi Asiyada mövcudluğuna böyük imkanlar yaratdı.

Bundan sonrakı mərhələdə Türkiyənin Azərbaycanla birgə Avrasiya materikində qlobal gücə çevrilmə prosesi daha da sürətlənəcək. Xüsusilə Zəngəzur dəhlizinin açılması ilə bu proses daha da sürətlənəcək”.

**İsmayıl**





# Moskvada görüş gözlənilir

## Lavrov ATƏT-in baş katibi ilə Qarabağdakı vəziyyəti müzakirə edəcək

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov iyunun 21-də Moskvada ATƏT-in Baş katibi Helqa Şmidlə görüşəcək.**

”Report”un Rusiya bürosunun məlumatına görə, bu barədə Rusiya XİN-in nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə çıxışı zamanı bildirib.

”Təhlükəsizliyin 3 istiqaməti - hərbi-siyasi, iqtisadi-ekoloji və insan hüquqları üzrə ATƏT-in fəaliyyətinin geniş spektrli məsələləri müzakirə ediləcək. Regional münaqişələrin həllində bu təşkilatın rolunun müzakirə edilməsi gözlənilir. Tərəflər Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı vəziyyət haqqında fikir mübadiləsi aparırlar. Rusiya ATƏT-in nüfuzunun və səmərəliliyinin artırılmasına tərəfdardır”, - M.Zaxarova qeyd edib.

# Bir az ümid yaranıb

## Ermənistanda indiyə qədərki yanlış siyasəti mühakimə edənlər də var

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Milli Məclisində çıxışı zamanı Ermənistana çağırış edib və regional əməkdaşlıqdan danışıb. Türkiyə lideri vurğulayıb ki, Naxçıvanla Bakını bağlayacaq Zəngəzur dəhlizinin açılması xüsusi əhəmiyyətə malikdir. Ərdoğan əlavə edib ki, regionun 6 ölkəsinin işirakı ilə platforma yaradılmalıdır:



"Paşinyanın, həm də Levon Ter-Petrosyanın tərəfdarları arasında regional əməkdaşlığa meyil edənlər çoxdur"

"Bu əməkdaşlıq platforması ilə birlikdə bölgədə sükunət yaranacaq, düşmənçilik aradan qalxacaq. Dəmir yolu ilə ermənilər Moskvaya və dünyaya çata biləcəklər. Biz Ermənistanla aramızdakı problemləri bilirik, amma buna rəğmən bu addımın atılmasında problem görmürük. Təbii ki, Gürcüstanın da Rusiya ilə bağlı bəzi problemləri var. Ancaq sıxıntılarımızı aşmaq üçün bu platforma kömək olar. Bölgənin sülhə ehtiyacı var. Ermənistan Azərbaycanla problemi həll etdikcə, biz də lazımı addımları atacağıq. Türkiyə ilə Ermənistan sərhədlərinin açılmasının Ermənistan üçün nə dərəcədə lazım olduğu ortadadır".

**Türkiyə liderinin Ermənistana çağırışını "Şərq"ə dəyərləndirən Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı deyib ki, Ermənistanın müəyyən təbəqəsində Türkiyəyə qarşı aqressiya yüksəlib.** Analitik bildirib ki, ümumən yüzillər boyu ermənilər türklərə nifrət şüuru ilə yetişiblər. Onlara daim düşmənçilik aşılanıb: "Düşmənçilik hissi ilə hərəkət edən ermənilər sadəcə özləri üçün deyil, bütöv region üçün problemlər yaradırlar. 44 günlük müharibədən sonra daxili və xarici qüvvələrin təsiri ilə Azərbaycan və Türkiyəyə qarşı nifrət bir qədər də alovlandırılıb. Amma ermənilər arasında indiyə qədərki yanlış siyasəti mühakimə edənlər də var. Normal yanaşmalarla hökuməti sorğusual edənlərin sayı çoxalmaqdadır. Müşahidə olunan müsbət tendensiya ermənilərə münasibətdə bir az ümid yaradır. Həm Nikol Paşinyanın, həm də Levon Ter-Petrosyanın tərəfdarları arasında regional əməkdaşlığa meyil edənlər çoxdur".

**A.Aslanlı vurğulayıb ki, ömür boyu düşmənçiliklə yaşamaq mümkün deyil, gələcəyə baxmaq lazımdır**: "Gələcək isə iddialardan əl çəkərək mədəni cəmiyyətlər kimi normal qonşuluq münasibətləri qurmaq və bölgə əməkdaşlığında iştirak etməkdir. Hər şey parlament seçkisindən sonra formalaşacaq hökumətin güclü və ya zəif olmasından asılıdır. Qərarların alınması hakimiyyətə kimin gəlməsindən daha çox, qurulacaq hökumətin dayanıqlı olmasından asılı olacaq. Başqa cür Ermənistanın gələcəyi yoxdur. Mntiq tələb edir ki, ermənilər düşüncələrini və siyasətlərini dəyişsinlər. Ermənilər ağıllı hərəkət etmək istəməsələr belə mövcud şərtlər diktə edir ki, Ermənistan əməkdaşlığa məcbur razılıq versin. Bütün halda şərtlər inteqrasiyanı tələb edir. Hazırkı dövrdə regional əməkdaşlığın formalaşma ehtimalı son 25-30 ildə ən yüksək həddədir və bu fürsəti dəyərləndirmək lazımdır".

**İsmayıl Qocayev**

## Çingiz Abdullayevə daha bir vəzifə verildi

### Xalq yazıçısı birinci katib vəzifəsini müvəqqəti icra edəcək



**Azərbaycan Yazıçılar Birliyinin (AYB) birinci katibi vəzifəsini müvəqqəti olaraq Xalq yazıçısı Çingiz Abdullayev icra edəcək.**

Bu barədə APA-ya AYB-nin mətbuat katibi Xəyal Rza məlumat verib.

O, Ç.Abdullayevin AYB-nin katibi vəzifəsində qalmaqla, qurultaya qədər birinci katibin səlahiyyətini də icra edəcəyini bildirib.

Vəzifə təyinatı qurultay zamanı səsvermə yolu ilə həyata keçiriləcək.

*Xatırladaq ki, bundan əvvəl AYB-nin birinci katibi mərhum Xalq şairi Fikrət Qoca idi.*

## "Anadolu Qartalı - 2021"

### Azərbaycan hərbçiləri Türkiyədə keçiriləcək təlimdə iştirak edəcək



**Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) uçuş və texniki heyəti, həmçinin aviasiya vasitələri "Anadolu Qartalı - 2021" birgə taktiki-uçuş təlimində iştirak etmək üçün Türkiyənin Konya şəhərinə yola düşüb.** Bu barədə APA-ya Müdafiə Nazirliyindən məlumat verilib.

Məlumata görə, iyunun 21-də başlayacaq təlimlərdə Azərbaycan HHQ-nin 2 ədəd MiQ-29 qırıcı və 2 ədəd Su-25 hücum təyyarəsi iştirak edəcək.

# Ən yaxşı zamandır

## Türkiyənin vasitəsilə NATO ilə əlaqələrimizi genişləndirə bilərik

Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığını davam etdirir. Nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlığa maraq göstərməsi də ölkəmizin bölgədə və ümumilikdə dünya arenasında mühüm rola malik olmasının bariz nümunəsidir. Rəsmi Bakının hər zaman xüsusi önəm verdiyi təşkilatlardan biri də Şimali Atlantika Müqaviləsi Təşkilatı, yəni NATO-dur.

Hərbi alyansla münasibətlərimiz 1992-ci ilin martında rəsmi Azərbaycanın bu təşkilatın Şimali Atlantika Əməkdaşlıq Şurası qurumuna üzv qəbul edilməsi ilə formalaşmağa başlayıb. Azərbaycan nümayəndə heyəti ilk dəfə olaraq 1992-ci ilin oktyabrında Türkiyədə NATO üzvü olan ölkələrin seminarında iştirak edib və qurumun baş katibi Manfred Vernerlə görüşüb. 1997-ci ildən təşkilatın Avro-atlantika Əməkdaşlıq Şurasının üzvüyük. Elə həmin ildə Azərbaycan NATO-nun Brüsseldəki mənzil-qərargahında öz diplomatik nümayəndəliyini açıb. 1999-cu ildə Azərbaycan NATO-nun rəhbərliyi altında Kosovoda aparılan sülhməramlı əməliyyatlara yardımçı olmaq məqsədilə hərbi bölmə göndərib. Əməkdaşlıq dövründə Azərbaycan qurumun çoxsaylı təlimlərində, treninqlərində, təhsil və digər proqramlarında iştirak edib, qarşılıqlı səfərlər həyata keçirilib. Həmçinin, NATO Azərbaycan ərazilərinin minalardan təmizlənməsinin maliyyələşdirilməsində iştirak edib. Ümumiyyətlə, Azərbaycan-NATO münasibətlərini qısa olaraq belə xarakterizə etmək olar. Azərbaycan Avropa və Avroatlantik məkanda qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında hərbi alyansla birgə işləyir. Qardaş Türkiyənin təşkilatın ən önəmli ölkələrindən biri olması reallığı hərbi alyansla rəsmi Bakının əlaqələrinə müsbət təsir göstərən amil sayılır.

Ötən gün "Azərbaycanın Avro-Atlantik məkanının sülh və təhlükəsizliyinə töhfəsi" adlı beynəlxalq konfransda çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev bildirib ki, NATO ilə siyasi dialoq və əməkdaşlığın daha da genişləndirilməsini istəyirik. H.Hacıyev deyib ki, beynəlxalq sülh və təhlükəsizliyin qorunmasında NATO-nun aktiv mövqeyi təqdirəlayiqdir: "NATO ölkələri ilə davamlı dialoqu yüksək qiymətləndiririk. Bu yaxınlarda NATO-nun Baş Qərargahına səfər etdim, maraqlı, vacib müzakirələrimiz oldu, Cənubi Qafqazdakı münaqişədən sonrakı vəziyyətlə bağlı məlumat verdik. NATO ilə siyasi dialoqla yanaşı, praktik əməkdaşlıq sahəsində də uğurlu əməkdaşlığımız var. Buna misal olaraq Azərbaycan Əfqanıstanda sülh və təhlükəsizliyin qorunmasına öz



"Vətən savaşında Azərbaycanın hərbi performansı alyans ölkələrinin də marağına səbəb oldu"

töhfəsini verir. Azərbaycan NATO-ya hava yolu ilə logistika dəstəyi də göstərir".

**Nüfuzlu beynəlxalq təşkilatla Azərbaycanın əməkdaşlığını "Şərq"ə təhlil edən AMİP sədri Arzuxan Əlizadə vurğulayıb ki, NATO-nun aparıcı ordusu Türkiyə Silahlı Qüvvələridir.** Partiya sədrinin sözlərinə görə, hərbi alyansda ikinci dövlət məhz Türkiyədir: "Qardaş ölkə vasitəsi ilə təşkilatla əməkdaşlığımızı genişləndirə bilərik. 44 günlük Vətən savaşında Azərbaycanın beşinci nəsil silahlardan istifadə etməklə yeni hərbi performans göstərməsi dünyada böyük rezonansa səbəb oldu. Əfsuslar olsun, NATO-nun aparıcı dövlətlərində, Qərbin hərbi gücü ilə tanınan ölkələrində ciddi maraq doğurdu. Özləri etiraf etdilər ki, Azərbaycanın apardığı müharibə taktikası Avropa dövlətlərinin hərbi tədris ocaqlarında öyrənilməkdədir. Bu, əlaqələrin inkişafı üçün mühüm amildir. Amma təşkilatla əməkdaşlığımız illər öncəyə dayanır. Uzun illərdir sülhməramlı missiyası çərçivəsində əməkdaşlıq edirik. Rəsmi Bakı bütün dövrlərdə hərbi alyansla əlaqələrin inkişafında maraqlı olduğunu bəyan edib. Qərb strukturundan da eyni münasibəti görmüşük. Partiya sədri kimi bu siyasəti təqdir edirik. Fikrimcə, Azərbaycan ən yüksək səviyyədə NATO ilə əməkdaşlığı davam etdirməlidir. Minalanmış xəritələrin alınması prosesində ABŞ-ın birbaşa iştirakı və qonşu Gürcüstanı bura qoşması NATO-Azərbaycan əlaqələrinin inkişafına mühüm töhfədir. Prezidentin köməkçisinin açıqlaması da mühüm olmaqla yanaşı, həm də anonsdur. Hikmət Hacıyevin sözlərindən aydın olur ki, Azərbaycan hökuməti NATO ilə əməkdaşlıqda, Qərbə inteqrasiyada maraqlıdır. Qardaş Türkiyə ilə birlikdə təşkilatdakı rolumuzun miqyasını mümkün qədər genişləndirməliyik".

**A.Əlizadə vurğulayıb ki, Qoşulmama Hərəkatına üzvlüyümüz NATO ilə əlaqələrə heç bir maneçilik törətmir:** "Azərbaycanın hərbi alyansa birbaşa üzvlüyündən söhbət getmir. Ən azından indiki mərhələdə bunun müzakirəsi aparılmır. Uzun zamandır bu istiqamətdə çalışan postsovet ölkələri - Moldova, Ukrayna, Gürcüstan belə quruma üzv ola bilməyiblər. Rəsmi Bakının indiki hədəfi hərbi alyansla çoxşaxəli əməkdaşlıq formalaşdırmaqdır. Üzvlük çox vaxt aparan prosesdir və gələcəyin məsələsidir".

**İsmayıl Qocayev**

# Türkiyə ordusu artıq Azərbaycandadır

## Üçüncü ölkədən təhlükə olarsa Ankara hərbi dillə danışmaq imkanlarına sahib olacaq



*Şuşa Bəyannaməsinin imzalanması və müttəfiqlik müqaviləsinin şərtlərinin müzakirəsi "Türkiyənin Azərbaycanda hərbi bazası olacaqmı" sualını yenidən gündəmə gətirib. Bəyannamədə bazanın yaradılması ilə bağlı konkret müddəa olmasa da, hərbi müttəfiqlik çərçivəsində müəyyən addımların atıla biləcəyi vurğulanır.*

Ən əsası bəyan edilir ki, Türkiyə Silahlı Qüvvələri ehtiyac yarandığı təqdirdə rəsmi Bakının dəvəti ilə istənilən vaxt ölkəmizə gələ və burada yerləşə bilər. Bununla bağlı Türkiyədə jurnalistlər Prezident Rəcəb Tayyib Ərdoğana da sual ünvanlayıblar. "Şuşa Bəyannaməsi hərbi baza məsələsini də özündə ehtiva edirmi" sualına Ərdoğan bu cür cavab verib: "Bu məsələ vurğulanan maddələrdən tamamilə kənarda deyil. Anlaşmalarda sonradan müəyyən əlavələr, genişlənmələr mümkündür. İndiki halda əsas diqqət daha çox sərhəd təhlükəsizliyinin təmin olunması və toxunulmazlığın təminat altına alınmasıdır". Bir neçə gün öncə beynəlxalq hüquq üzrə professor Fərhad Mehdiyev Azərbaycanda Türkiyənin hərbi bazasının yaradılmasında heç bir maneə olmadığını demişdi. Hüquqşünas vurğulamışdı ki, Azərbaycan ərazisində hansısa ölkənin hərbi bazasının yaradılması və ya hərbi kontingentinin yerləşdirilməsi həmin ölkə ilə rəsmi Bakının verəcəyi qərardan asılıdır: "Azərbaycan Qoşulmama Hərəkatının sədri və üzvü olduğu üçün indiki halda nə KTMT, nə də NATO kimi hərbi bloklara qoşula bilər. Lakin öz ərazisində Türkiyə, Pakistan və ya başqa bir ölkənin hərbi bazasını yarada bilər. Türkiyə NATO ölkəsi olsa da, onun Azərbaycan ərazisində yaradacağı hərbi baza təşkilatın bazası sayıla bilməz".

**VHP-nin Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli "Şərq"ə vurğulayıb ki, Şuşa Bəyannaməsinə əsasən, Türkiyə və Azərbaycandan hər hansı birinə üçüncü ölkə tərəfindən təhlükə olarsa, bu ölkələr bir-birini qorumaq üçün birgə addımlar ata bilərlər.** Analitikin fikrincə, Türkiyənin Şuşada Baş Konsulluq açacağını bildirməsi də çox önəmlidir: "Bununla Türkiyə Şuşanın statusunu siyasi baxımdan yüksəldərək, mühüm strateji şəhərin təhlükəsizliyinə siyasi diplomatik təminat vermiş oldu. Həmçinin, Türkiyə prezidentinin bu sənədi NATO Sammitindən və ABŞ Prezidenti Con Baydenlə uğurlu keçən görüşdən sonra imzalaması, sənəddə ifadə olunan iqtisadi-siyasi təminatın arxasında dünyanın aparıcı güclərinin də maraqlarının durduğunu ifadə etmiş oldu. Bütün bunlardan çıxış edərək demək olar ki, Bəyannamə Azərbaycan üçün hərbi baxımdan əvəzolunmazdır. Düzdür, sənəddə Türkiyə Silahlı Qüvvələrinin Azərbaycanda yerləşməsi ilə bağlı birbaşa müddəa yoxdur. Amma Qars müqaviləsinə istinad, Zəngəzur dəhlizi ilə bağlı açıqlama Türkiyənin bölgədə təminatçı rolunda çıxış etdiyinin açıq göstəricisidir. NATO üçün Cənubi Qafqazda Türkiyənin Rusiyanı sıxışdırması ən ideal variantdır. Bu baxımdan demək olar ki, NATO və dolayı yolla Türkiyə ordusu artıq Azərbaycandadır".

**İsmayıl Qocayev**



## Şuşada Türkiyənin konsulluğu açılır

### Siyasi iradə ən yüksək səviyyədədir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfərindən sonra Qarabağda qardaş ölkənin konsulluğunun yaradılması məsələsi yenidən gündəmə gəlib.**

Bir çox siyasətçilərin fikrincə, bu, yaxın zamanda baş verəcək və iki ölkə arasındakı əlaqələri daha da dərinləşdirəcək.

**AĞ Partiya sədri Tural Abbaslı da belə düşünür.** O, "Şərq"ə açıqlamasında Şuşada konsulluğun açılmasına inamını ifadə edib: "Bu məsələnin reallığı siyasi iradədən asılıdır. Və siyasi iradə ən yüksək səviyyədədir. Texniki tərəflərdə də hansısa problem yoxdur. Şuşada konsulluq açan ilk ölkənin məhz Türkiyə olması mühüm siyasi mesajdır. Bu, Ankaranın regionda daimi olması deməkdir".

**Kənan**

## Türkiyə faktoru Ermənistanın əl-qolunu bağladı

### "Seçkilərdən sonra yekun sülh müqaviləsinin hazırlanmasına başlanılacaq"



**"Ermənistan XİN-i ingilis dilində (mütləq ki) bütün dünyaya çağırış xarakterli bəyanat yayıb ki, Şuşaya Azərbaycan və Türkiyə prezidentlərinin səfəri bölgədəki sabitliyə zərər verir. Bütün dünyaya, bütün dünyanın Azərbaycan ərazisi kimi tanıdığı ərazi üçün müraciət edirlər".**

Bu sözləri hərbi-siyasi ekspert Həşim Səhrablı deyib.

**Siyasi analitik Samir Hümbətov isə rəsmi İrəvanın sərsəm açıqlaması barədə "Şərq"ə danışıb:** "Şər-böhtan yaymaq Ermənistan üçün adi hala çevrilib. Siyasətçilərin "əlləri yerdən-göydən üzülsə də" seçkiqabağı vəziyyətdə "dil boğaza qoymamağa" məhkumdurlar. İndi üç əsas namizəd var: Petrosyan, Koçaryan və Paşinyan. Petrosyan artıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır və deyir ki, ağıllı siyasətçi Bakı ilə növbəti qarşıdurmaya getməz. Çünki Şuşa Bəyannaməsinə əsasən kimsə Azərbaycana müdaxilə etsə, qarşısında Türkiyəni görəcək. Paşinyan özü də həqiqəti başa düşür, amma etiraf edə bilmir. Koçaryan isə sadəcə Rusiyaya xoş gəlməyə çalışır. Səslənən bəyanatlar, o cümlədən XİN-in açıqlaması seçkilər ərəfəsində ictimai rəyə təsir etməyə hesablanıb".

**Analitik, həmçinin proseslərin bundan sonrakı inkişafı barədə də proqnozlarını bölüşüb:** "Seçkilərdən sonra yekun sülh müqaviləsinin hazırlanmasına başlanılacaq. Düzdür, bu, xeyli vaxtaylar, illər tələb edə bilər. Lakin istənilən halda prosesə start veriləcək".

**Kənan**

# Türkiyə və Azərbaycan regionun gələcəyini yenidən dizayn edirlər

## "Şuşada tarixi bəyannaməyə imza atılması böyük siyasi-strateji əhəmiyyətə malikdir"




*"Dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvədədir. İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, yeni bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı".*

Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Politoloqun sözlərinə görə, heç şübhəsiz, postmüharibə dövründə yaranmış yeni reallıqların fonunda Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı regionda dayanıqlı sülhün, etibarlı təhlükəsizliyin və çoxtərəfli əməkdaşlığın təmin olunması baxımından strateji önəm kəsb edir: "İki ölkənin sıx əməkdaşlığı və birgə təşəbbüsləri regionda çoxşaxəli qarşılıqlı faydalı işbirliyinin dərinləşməsində, strateji inteqrasiyanın daha intensiv xarakter almasında vacib rola malikdir. Bütövlükdə, bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı faktor kimi çıxış edir".

**Politoloq vurğulayıb ki, iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistanın işğalından azad olunan Şuşa şəhərinə səfər etməsi və Şuşada tarixi bəyannaməyə imza atılması müstəsna siyasi-strateji əhəmiyyətə malikdir:** "Bu, ilk növbədə, Vətən müharibəsində ölkəmizə güclü mənəvi-siyasi dəstək göstərən Türkiyə ilə Azərbaycanın sarsılmaz birliyi və həmrəyliyinin ifadəsidir. Bununla yanaşı, bu, iki dövlətin birgə addımlayaraq regionun strateji gələcəyini birlikdə dizayn etdiklərini göstərir. Qars müqaviləsindən yüz il sonra iki ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi dostluq, qardaşlıq və strateji tərəfaşlığa əsaslanan Türkiyə-Azərbaycan münasibətlərinin ən yüksək zirvəyə yüksələrək yeni mərhələyə qədəm qoyduğunu ifadə edir. Bəyannamədə bütün sahələrdə ikitərəfli münasibətlərin inkişafı ilə əlaqədar aydın strateji niyyət ifadə olunub. Digər tərəfdən, Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik, qarşılıqlı dəstək nümayiş etdirir. Eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə əlaqədar qətiyyətli mövqe ortaya qoyulması mühüm əhəmiyyət kəsb edir. Ən əsası, sənəddə tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə zamin durulur. Yəni qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçiriləcək. Həmçinin, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili də nəzərdə tutulub ki, bu da olduqca böyük strateji önəm daşıyır".

N.Qələndərli əlavə edib ki, yeni mərhələdə də sıx təmaslar və intensiv əlaqələr strateji müttəfiqlik münasibətlərinin uğurlu inkişafını, o cümlədən iki ölkənin birgə təşəbbüslər əsasında mühüm nailiyyətlər əldə etməsini şərtləndirəcək.

**Aynurə Pənahqızı**

# ANCA Amerikada terror təşkilatına çevrilir

## Erməni yalanlarının qarşısını almasaq, çətin olacaq

Millət vəkili, BQP sədri Fazil Mustafa sosial şəbəkədə önəmli bir məsələyə diqqət yönəldib. Erməni lobbisinin xarici ölkələrdə xüsusi fəallığına toxunan deputat düşmənin dayanmadığını bildirib. Onun sözlərinə görə, ABŞ-dakı bir QHT dövlətdən daha güclü fəaliyyət nümayiş etdirir:




”Amerika Erməni Milli Komitəsi (ANCA) ”Dağlıq Qarabağa” yardımı artırmaq və ABŞ-ın Azərbaycana yardımını əngəlləmək məqsədilə Qarabağ üçün 250 milyon dollar yardım tələb edir. Azərbaycan hökumətinə beynəlxalq maliyyə vəsaitlərinin və ya kreditlərin verilməsinin əngəllənməsini istəyir”. Parlament üzvü bununla bağlı təklifin 2022-ci ildə qanun layihəsi hazırlayacaq ABŞ Təmsilçilər Məclisinin iclasına təqdim olunub: ”Ona görə də arı kimi çalışmalıyıq. Bu cür təşəbbüsləri əhəmiyyətsizləşdirmək üçün effektli fəaliyyət formalarını Türkiyə ilə birlikdə gerçəkləşdirməyi bacarmasaq, bu axının qarşısında xeyli çətinliklər yaşayacağıq”.

**Amerika Erməni Milli Komitəsinin fəaliyyətinə mütəmadi diqqət çəkən ictimaiyyət nümayəndələrindən biri də ”Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi” İctimai Birliyinin sədri Fuad Hüseynzadədir.** QHT rəhbəri, tanınmış jurnalist F.Hüseynzadə ”Şərq”ə açıqlamasında deyib ki, ANCA-nın məqsədi qondarma rejimin ”müstəqilliyinin” tanınmasına, bütün erməni ”hərbi əsirlərin” qeyd-şərtsiz azad edilməsinə, Bakının təhlükəsizliyi sahəsində hərbi və humanitar yardım proqramlarının dayandırılmasına nail olmaqdır: ”Təşkilatın əsas siyasi prioritetindən biri də Ermənistana və qondarma rejimə Ağ Ev tərəfindən humanitar yardımın edilməsidir. ABŞ Nümayəndələr Palatasının 65-dən çox üzvü Ermənistana və qondarma rejimə yardım kimi 100 milyondan artıq dollar vəsait ayrılması barədə Konqresin erməni toplantısının xahişinə qoşulub. Ümumi olaraq Ermənistana və qondarma rejimə 250 milyon dollar dəyərində inkişaf məqsədi ilə humanitar yardımın verilməsinə çalışılır. Konqresdə erməni qrupunun həmsədri Frank Pallone bildirib ki, ötənilki müharibə və bunun nəticəsində yaranmış qeyri-müəyyənlik nəticəsində sarsılmış Ermənistana yardım göstərmək üçün Amerika Birləşmiş Ştatlarının nadir imkanları var. Konqresmen Kris Smit isə ABŞ Nümayəndələr Palatasını qondarma rejimə təcili tələbat, mənzil, tibbi yardım, infrastruktur və 50 milyon dolları ayırmağa çağırıb.

*Jurnalistin sözlərinə görə, ANCA-nın təşkilatçılığı ilə ABŞ Nümayəndələr Palatasına 50 mindən çox məktub göndərilib:* ”Lobbi təşkilatının təşəbbüsü ilə erməniperəst senator və konqresmenlər ATƏT-in Minsk qrupunun danışıqlar prosesində iştirakını bərpa etməyə çalışırlar. Bu məsələ əsasən senator Bob Menendes tərəfindən Senat Komitəsində dəfərlərlə qaldırılır. Menendes Bayden administrasiyası tərəfindən ”erməni soyqırımı”nın tanınmasını dəstəkləmək üçün də çağırışlar etmişdi. 37 senator prezident Baydenə müraciət ünvanlayıb. Onlar Azərbaycana qarşı sanksiyaların tətbiqi üçün çağırışlar ediblər”.

**Birlik rəhbərinin sözlərinə görə, Konqresin erməniperəst üzvləri, eyni zamanda özlərinin sosial şəbəkə profillərində Ermənistan-Azərbaycan arasındakı sərhəd gərginliyini əsassız olaraq siyasi formada təqdim edirlər:** ”Ölkəmiz əleyhinə tərxribatçı fikirlər səsləndirirlər. Ümumiyyətlə, erməniperəst konqresmenlər ABŞ tərəfindən Azərbaycana ediləcək istənilən gələcək yardımları bloklamaq üçün maksimum cəhdlər göstərirlər. ANCA ölkəmizlə bağlı öz qarşısına çox kəskin prioritetlər qoyub və artıq terror təşkilatı imici yaradır. Bu qurum müəyyən mənada ABŞ-ın dövlət siyasətinə təsir gücünə malikdir. Erməni lobbisi, xüsusən erməniperəst konqresmen və senatorlar vasitəsilə Komitə bir çox hallarda öz təsirini Ağ Evə göstərir. Bu baxımdan təşkilatın anti-Azərbaycan və anti-Türkiyə prioritetlərini gec və ya tez həyata keçirməsi gözlənilməndir. Buna qarşı önləyici tədbirlərin görülməsi dövlətimiz naminə faydalı olardı”.

**İsmayıl Qocayev**

---

# Əsas məsələ Zəngəzur dəhlizinin açılmasıdır

## “Altılıq platforması” alınsa, regiona uzunmüddətli sülh gələcək

**“Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı region üçün strateji əhəmiyyət daşıyacaq məsələlərə toxundu”.**



*Bunu Milli Məclisin deputatı Vüqar Bayramov ”Şərq”ə açıqlamasında deyib. O qeyd edib ki, qardaş ölkə rəhbərinin qeyd etdiyi məsələlərdən biri də ”Altılıq platforması” ilə bağlı oldu:* ”Prezident Ərdoğan Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan platforması yaradılmasının regional vacibliyini vurğuladı. Regionda əməkdaşlıq bölgədə uzunmüddətli sülhün formalaşması baxımından da vacibdir. Kommunikasiyaların bərpası və əməkdaşlığın formalaşması üçün isə əsas layihələrdən biri də məhz Zəngəzur dəhlizinin açılmasıdır. Dəhliz Türk Dünyasının birləşdirilməsi və regionda əməkdaşlıq üçün yeni imkanlar yaratması baxımından vacib olmaqla yanaşı bölgədə davamlı sülhün qorunub saxlanması aspektindən də mühümdür”.

**Deputat vurğulayıb ki, regionun kifayət qədər iqtisadi potensialı var və bu da regional dəhlizlərin əhəmiyyətini artırır:** ”Daha geniş anlamda region ölkələrindən Türkiyə və Rusiya Böyük İyirmiliyə üzv olan dövlətlərdir. İran regionun aparıcı ölkələrindən hesab olunur. Cənubi Qafqazın isə dayanıqlı sülh kontekstində inkişaf perspektivləri yüksək qiymətləndirilir. Söhbət 3 trilyon dollarlıq Ümumi Daxili Məhsulu olan region ölkələrinin bərpa olunacaq kommunikasiyalardan və xüsusən də Zəngəzur dəhlizindən istifadəsindən gedir. Rusiya 1.7 trilyon, Türkiyə 761.4 milyard, İran 454 milyard, Azərbaycan 48.05 milyard, Gürcüstan 17.48 milyard və Ermənistan 13.67 milyard dollarlıq ÜDM-yə malikdirlər. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Zəfərdən sonra regionda formalaşan yeni düzən fonunda bölgədə dayanıqlı inkişaf və sülh üçün isə dəhlizlərin bərpası qaçılmazdır”.

**Aynurə**

---

# Görüşdən liderlər nikbin ayrıldılar

**Ancaq Bayden açıqlamasında tam haqlıdır**

İyunun 16-da Cenevrədə Rusiya-ABŞ danışıqları baş tutub. İki dövlətin liderləri bir sıra mühüm məsələləri müzakirə ediblər. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov "Exo Moskva" radiostansiyasının efirində prezidentlərin Cenevrədə baş tutan görüşün müsbət keçdiyini səsləndirib. Qeyd edək ki, Rusiya və ABŞ liderlərinin görüşü gözlənilənlərin əksinə 5 saat deyil, 3,5 saat çəkib.

Bu vaxta görüş zamanı edilən fasilənin müddəti də daxil idi. Görüşün yekunlarına dair keçirilən mətbuat konfransında Rusiya Prezidenti Vladimir Putin bildirib ki, amerikalı həmkarı Co Baydenlə qurumlararası səviyyədə strateji sabitliyə dair məsləhətləşmələrə dair razılığa gəliblər. O vurğulayıb ki, hər iki ölkə dünyada strateji sabitliyə dair xüsusi məsuliyyətin olduğunu anlayır. Tərəflər, həmçinin Rusiya və ABŞ səfirlərinin müvafiq olaraq Vaşinqton və ya Moskvaya geri qayıtmaları barədə razılığa gəliblər. **Mövzu ilə bağlı ”Şərq”ə açıqlamasında politoloq Turan Rzayev qeyd edib ki, liderlərin açıqlamaları görüşün ”orta səviyyədə” keçdiyini göstərsə də, Co Baydenin Cenevrəni tərk etməzdən öncə ”Rusiya hazırda çox çətin vəziyyətdədir” deməsi görüşün, əksinə, olduqca gərgin keçdiyini göstərir:** ”Əvvəla, Baydenin ”Rusiya hazırda çox çətin vəziyyətdədir” deməsi heç də təsadüfi deyil. Üstəlik, bunu Çin ilə əlaqələndirməsi xüsusi diqqət çəkdi. Faktiki olaraq Bayden Rusiya üçün təhlükənin Qərbdən deyil, məhz Şərqdən, yəni Çindən gəldiyini qeyd edib. Yəni Bayden Kremlin mövcud gücünün əslində tükəndiyini, sadəcə, Çinin investisiyaları ilə ayaqda qaldığını demiş oldu. Mahiyyət etibarilə Bayden haqlıdır. ABŞ və Qərbin sanksiyaları hazırda Rusiya iqtisadiyyatını çox pis hala salıb. Bundan əlavə, rus rublunun dollar qarşısında ucuzlaşması da başqa bir faktordur. Təbii ki, Çin də bunu bilir və son illərdə Rusiyaya yatırılan investisiyaların həcmini artırıb. Çinin hədəfi əslində bəllidir. Pekin Rusiyanın Ural dağlarından Şərqdəki Asiya torpaqlarının zəngin yeraltı və yerüstü sərvətləri ilə yaxından maraqlanır. Rusiya Sibir başda olmaqla, Asiya torpaqlarının yerüstü və yeraltı sərvətlərinin cəmi 10 faizini istifadə edir. Ərazinin sərt iqlimi, texnoloji avadanlıqların çatışmaması, iş gücünün azlığı və iqtisadi potensialın olmaması Kremlin bu torpaqları tam olaraq mənimsəməsinin qarşısını alır. Lakin Çin üçün vəziyyət heç də belə deyil. Sənayesi, iqtisadiyyatı və ordusu günü-gündən güclənən Çin daxili bazarının xammal ehtiyacını region ölkələrindən təmin edir. Yüksək işçi gücünə və lazımi texnoloji avadanlıqlara malik olan Pekin Rusiyanın qeyd etdiyim səbəblərdən tam olaraq istismar edə bilmədiyi Asiya torpaqlarına həm investisiya ayırır, həm texnoloji dəstək, eləcə də ucuz işçi qüvvəsi ilə təmin edir. Faktiki olaraq Kreml göz görə-görə Asiya torpaqlarını Çinə icarəyə verir. Əvəzində isə Vaşinqton və Qərblə mübarizədə silahlanmaya maliyyə ayıraraq özünün hələ də fövqəldövlət statusunda olduğunu göstərmək istəyir. Bayden ”Rusiya hazırda çox çətin vəziyyətdədir” deyərkən məhz bunu nəzərdə tutub”.

> “ABŞ və Qərbin sanksiyaları hazırda Rusiya iqtisadiyyatını çox pis hala salıb”



Çinin Rusiyaya təzyiq etmək məsələsinə gəlincə, politoloq qeyd edib ki, Bayden burada Rusiyanı qorxutmağa, ya da ən azından Çinə qarşı güvənini sarsıtmağa çalışır: ”Çünki Bayden anlayır ki, Çin Rusiyanın Asiya torpaqlarına investisiya ayırıb işçi qüvvəsi cəlb edərək gücünü günü-gündən artırır. Digər tərəfdən, Pekin Qərblə arasındakı Rusiyanın hərbi baxımdan zəifləməsini istəmir. Çünki anlayır ki, bu zaman ABŞ hər vəchlə Qərbin bu gün Rusiyaya qarşı etdiyi iqtisadi təzyiqi Çinə qarşı edəcək. Pekin buna görə Rusiyanı gücləndirir. ABŞ bunu bildiyi üçün Pekinlə Moskvanın arasını açmağa çalışır”.

**Aynurə Pənahqızı**

# Bölgənin taleyini Ərdoğan həll edir

## Əlimusa İbrahimov: “NATO regionun idarəsini Türkiyəyə tapşırıb”



ABŞ-ın keçmiş prezidenti Donald Tramp Co Baydenlə Vladimir Putin arasında keçirilən sammitlə bağlı danışıb. Bu barədə "Fox News" yazıb. Onun sözlərinə görə, Cenevrədəki sammit Vaşinqton üçün deyil, Moskva üçün uğurlu keçib.

”Biz heç bir şey əldə etmədik, səhnəni Rusiyaya verdik. Məncə, Rusiya üçün yaxşı bir gün oldu”, - deyə D.Tramp qeyd edib. Hər halda çoxdandır gözlənilən ”Büyük buluşma”, nəhayət, baş verdi. Bu, planetin gələcəyi üçün ciddi sürprizlər vəd edir.

*BDU-nun professoru, politoloq Əlimusa İbrahimov liderlər arasındakı görüş barədə ”Şərq”in suallarını cavablandırıb:*

**- Müzakirəni necə qiymətləndirirsiniz?**

- Hər iki dövlət başçısı dialoqun yaxşı keçdiyini dedi. Amma görüş tərəflər arasında dönüş nöqtəsi olmadı. Yenə də həllini tapmamış problemlər var.

**- Niyə belə düşünürsünüz?**

- Jurnalistlərin görüşə buraxılmaması dialoqun gərgin keçdiyinə işarədir. Üstəlik, söhbət dörd saatdan artıq davam edib. Adətən tərəflər arasında razılıq əldə edilməyəndə belə olur. Xüsusilə, Ukrayna mövzusunda tərəflər ortaq məxrəcə gələ bilməyiblər.

**- Elə isə münasibətlər necə davam edəcək?**

- İndiyədək necə idisə, bundan sonra da elə. Görüş müsbət nəsə vəd etmir. Liderlərin arasında təmasların intensiv keçiriləcəyi və bəzi xırda problemlərin həll olunması istisna deyil. Lakin ”buzlar ərimәyəcək”.

**- Türkiyə Prezidenti Ərdoğanın Baydenlə görüşdən bir gün sonra Şuşaya gəlməsi regionda qardaş ölkənin təsirinin artması ilə bağlı müxtəlif iddialara səbəb olub...**

- Bildiyiniz kimi, ABŞ-la Türkiyə arasındakı münasibətlərdə müəyyən soyuqluq olsa da, NATO həmişə tərəflər arasında vasitəçi kimi çıxış edib və Türkiyəni Vaşinqtona qarşı müdafiə edib. Baydenlə Ərdoğan arasındakı görüş Türkiyənin NATO daxilindəki məsuliyyətinin artmasına işarədir. Ankaranın vəzifələri artıb. Türkiyənin Cənubi Qafqaza gəlişinə də məhz bu kontekstdən yanaşmaq lazımdır. NATO və ABŞ Rusiya faktoruna birbaşa müdaxilədən çəkindikləri üçün regiondakı siyasətlərini Türkiyə vasitəsilə davam etdirmək niyyətindədirlər. Fikrimcə, Türkiyənin bölgədə olması Rusiyanı o qədər də qıcıqlandırmayacaq. Çünki Ankara onsuz da müharibənin ilk günündən yanımızda olub. Bir sözlə, NATO regionun idarəsini Türkiyəyə tapşırıb.

**- Bu, Qarabağda Türkiyə ilə Rusiya arasındakı münasibətlərə necə təsir edəcək?**

- Rusiya öz ambisiyalarına və ya ermənilərin təhrikinə görə Qarabağda ”əl- qol açmaq” fikrinə düşməməlidir. Əks halda qardaş ölkənin də fəaliyyəti genişlənəcək. Məncə, Türkiyənin Qarabağdakı proseslərə nəzarəti güclənəcək. Və Ermənistandakı seçkilərdən sonra rəsmi Ankara regionda, o cümlədən Qarabağda fəallaşacaq. Ərdoğanın bəyanatları təsadüfi deyil. O, bölgənin taleyini həll etməyə başlayıb.

**Kənan Novruzov**

---



## Azərbaycan-Türkiyə əlaqələrində yeni mərhələ başladı

### Şuşa Bəyannaməsi Cənubi Qafqazın geosiyasi dizaynı dəyişdi

**Məlum olduğu kimi, Şuşada Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanan müqavilə həm də özündə hərbi əməkdaşlığı ehtiva edir.**

Bu isə o deməkdir ki, bizi istəməyənlər, düşmənlər bundan sonra sərsəm bəyanatlar səsləndirməzdən əvvəl iki dəfə düşünməli olacaqlar. Çünki Şuşa Bəyannaməsi ilə gücümüzə güc qatıldı.

**Keçmiş baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn müqavilənin əhəmiyyəti barədə fikirlərini ”Şərq”lə bölüşüb:** ”Beləliklə, Azərbaycan-Türkiyə əlaqələrində yeni mərhələ başlandı, müttəfiqliyimiz gücləndi. Bu mənada sənəd tarixi əhəmiyyətlidir. Fikrimcə, sənəddə əksini tapan bəzi məsələlər barədə bundan sonra da ayrı-ayrılıqda sənədlər imzalanacaq. Şuşa Bəyannaməsi ilə Cənubi Qafqazın geosiyasi dizaynı dəyişdi. Region dövlətləri arasında təhlükəsizliyin təmin olunması və Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi baxımından sənəd mühüm əhəmiyyət kəsb edir”.

P.Hüseyn, həmçinin sənəddə toxunulan Zəngəzur dəhlizi haqqında danışıb: ”Bu, Türkiyə ilə Azərbaycanı, Naxçıvanla Azərbaycanı birləşdirən və Çindən Avropayadək uzanan xətdir. Dəhlizin açılmasının bütün regionun maraqlarına cavab verməsinə dair yekdil fikir var. Narazı olan yalnız Ermənistandakı bəzi qüvvələrdir. Məncə, necə adlandırılmasından asılı olmayaraq sözügedən nəqliyyat-kommunikasiya xəttinin açılması tam real məsələdir”.

**Kənan**

---

# Tələbələrə kreditlər faizsiz verilməlidir

Prezident İlham Əliyev Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalayıb. Fərmana əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Təhsil Tələbə Krediti Fondu" (bundan sonra - Fond) yaradılıb.

Müəyyən edilib ki, Fond təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsidir. Təhsil tələbə kreditinin məbləğinin yuxarı həddi hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləğindən çox olmamalıdır. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 7 (yeddi) üzvdən ibarət Himayəçilik Şurası yaradılır. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən - sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirir. Fondun fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**Təhsil eksperti Kamran Əsədov prezidentlərin fərmanını ”Şərq”ə dəyərləndirib. Ekspert qeyd edib ki, hələ 2013-cü ildə ”Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”nda Təhsilin İnkişaf Fondunun yaradılması nəzərdə tutulmuşdu, amma yaradılmamışdı:** ”Son 7 il ərzində 5 mindən artıq tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə universitetlərdən xaric edilib. Qanunla isə insanların təhsil alması üçün şərait yaradılmalıdır. Azərbaycanda hər il məzunların cəmi 42 faizi ixtisas üzrə iş tapa bilir. Qalanlar ya digər ixtisaslar üzrə işləyir, ya da ümumiyyətlə, işləmir. Qeyd edim ki, tələbə kreditləri üçün 80 milyon manat ayrılıb və ayrılan 80 milyon manat 38-42 min tələbənin təhsil haqqını ödəməyə imkan verəcək”.

**K.Əsədov hesab edir ki, kreditlər faizsiz verilməlidir:** ”Çünki sonra tələbələr problemli kredit alana çevrilməsinlər. Həmçinin kredit verilən uşaqlar sonra işlə təmin edilməlidir ki, təhsili başa vurandan sonra onu ödəyə bilsinlər. İlk növbədə qeyd edim ki, hazırda Azərbaycanın 54 ali təhsil müəssisəsində 182 minə yaxın tələbə təhsil alır. Onların 60 faizi öz vəsaiti hesabına, yəni ödənişli əsaslarla, 40 faizi isə dövlət büdcəsi vəsaiti hesabına təhsil alır. Bu o deməkdir ki, hazırda Azərbaycan ali təhsil müəssisələrində 110 minə yaxın şəxs ödənişli əsaslarla təhsil alır. Avropa ölkələri və ABŞ, postsovet məkanından isə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Özbəkistan təhsil kreditləşməsini tətbiq edirlər. Məsələn, ABŞ-da bununla Federal Agentlik məşğul olur. Agentliyin çox böyük dövriyyəsi var. Kreditlər 3 növdür: federal tələbə krediti, valideyn krediti və özəl kredit. Hər biri müxtəlif qruplara və şərtlərlə verilir, faizlər çox aşağıdır. Dövlət yaxşı oxuyan tələbələr üçün bir sıra başqa güzəştlər də tətbiq edir.



## Əks təqdirdə həmin şəxslər bir müddətdən sonra problemli kredit alana çevriləcəklər

Bəzi ştatlarda təhsildə, elmdə yüksək nəticə əldə edən tələbələrə o kreditlər bağışlanır. Analoji qurumlar Almaniyada var, Fransada, Böyük Britaniyada, Şərqi Avropa ölkələrində də var. Kreditlərin mənbəyi kimi adətən dövlət resursları çıxış edir. Amma dövlətin stimullaşdırdığı özəl fondlar, banklar da bu prosesdə iştirak edə bilir. Həmçinin universitetlərin özləri də kredit ayırırlar. Əksər ölkələrdə faizlər çox aşağı, müddət uzun olduğu üçün qaytarılmasında çətinlik yaratmır. Adətən kreditin qaytarılmasına universiteti bitirdikdən 2 il sonra başlanılır. Hətta, 5-7-10 ilə, bəzən isə 30 ilədək müddətdə qaytarılır”.

Təhsil eksperti vurğulayıb ki, bütün dünyada təhsilin inkişaf etdirilməsində bu kreditlər böyük rol oynayır: ”Müsəlman ölkələrindən İndoneziya və Türkiyədə məhdud da olsa təhsil kreditləşməsi tətbiq olunmağa başlayıb. Avstraliyada təhsil kreditləri faizsiz verilir. Bəzi ölkələrdə isə faizlər yalnız texniki xərcləri örtəcək həcmdə olur - 1-2 faiz. Ümumiyyətlə, tələbə kreditləri konstitusiyanın tələblərinə ziddir. Belə ki, konstitusiyaya görə maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Hər bir vətəndaşın təhsil almaq hüququ var. Bunu dövlət təmin edir. Statistikaya baxsaq, görərik ki, son 5 il ərzində 7 mindən çox tələbə təhsil haqqını ödəyə bilmədiyi üçün ali təhsil almaqdan məhrum olub. Yəni 1-2-ci kursda oxuyub, növbəti illərin təhsil haqqını ödəyə bilmədiyi üçün universitetdən imtina etməli olub. Qardaş Türkiyədə də kredit sistemi mövcuddur və tələbələrə çox ciddi güzəştlər edilir. Bu gün ali təhsil müəssisələrini bitirənlərin 42 faizi işlə təmin olunur. Bunun üzərində işləmək lazımdır. Çünki kredit götürüb təhsil haqqı ödəyən şəxslər potensial problemli kreditora çevrilir”.

**Aynurə Pənahqızı**

# “Paşinyan təkbaşına hökümət formalaşdıra bilməyəcək”



## Türkiyəli professor: “Seçkilərdən sonra Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri düzəlməyəcək”

Ermənistanda növbədənkənar parlament seçkilərinə cəmi üç gün qalıb. Namizədlərin təbliğat kampaniyası davam edir. Təbliğatın əsas elementi isə qarayaxma, şər və böhtandır. Bunu ayrı-ayrı siyasətçilərin səsləndirdikləri bəyanatlarda aydın görmək olar.

Təsadüfi deyil ki, ictimai rəydə hələ ki, konkret qərar yoxdur. İnsanlar kimi dəstəkləyəcəklərini bilmirlər. Çünki ayrı-ayılıqda paşinyanlardan, koçaryanlardan, sarkisyanlardan deyil... bütünlükdə siyasi elitadan beziblər. İndi onlar pislərin arasında ən az pis olanın hakimiyyətini arzulayırlar. Erməni xalqı saydığını saysın, fələk isə...

”Şərq” olaraq Ermənistandakı seçkiqabağı vəziyyətlə bağlı türkiyəli professor, beynəlxalq məsələlər üzrə ekspert Yaşar Onayla söhbətləşdik:

**- Hazırkı durumu necə qiymətləndirirsiniz?**

- Ermənistanda xaos davam edir. Seçki marafonu bu gərginliyi daha da artırıb. İndi Baş nazir vəzifəsini icra edən Nikol Paşinyan Qarabağın tarixi sahiblərinə, yəni Azərbaycana qaytarılmasına görə ittiham olunur. 90-cı illərin əvvəllərində torpaqlarımızı işğal edən keçmiş prezidentlər Robert Koçaryan və Serj Sarkisyan onu günahlandırırlar. Paşinyanın şansları azdır. Onun ən güclü rəqibi Koçaryandır. Amma başqa ciddi namizədlər də var.

**- Məsələn, kim?**

- Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəisi Artur Vanetsyan. Onun yaratdığı ”Vətən” partiyası ictimai rəydə çox tanınmır. Fəqət, adını çəkdiyim siyasətçi Sarkisyanla birlikdə ittifaq yarada bilər. Ümumiyyətlə, gözlənilməzliklər istisna deyil.

**- Hansı gözlənilməzliklər?**

- Bilirsiniz ki, Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan hansısa ittifaqa qoşulmayıb. O, seçkilərdə tək iştirak edəcək. Paşinyanın partiyasının şansı çox olsa da, bu, onun tək başına hakimiyyətə gəlməsi üçün kifayət deyil. Yəni Paşinyan iqtidarı üçün risk var. Ümumiyyətlə, mən hansısa partiya nümayəndəsinin təkbaşına hakimiyyətə gələcəyini düşünmürəm.

**- Seçkilərin nəticəsindən sonra nələr dəyişəcək?**

- Nəsə dəyişməyəcək. Məsələ ondan ibarətdir ki, namizədlərin hər birinin - həm iqtidarın, həm də müxalifətin köklündiyi əsas məsələ Qarabağdır. Qarabağ onların təbliğat kampaniyalarının əsasını təşkil edir. Deməli, seçkilərdən sonra Azərbaycan və Türkiyə ilə münasibətlər düzəlməyəcək. Ermənistanın sabitliyə meyil göstərəcəyini düşünmək əbəsdir və xəyaldır.

**Kənan Novruzov**

## Kapitan Kəlbəcərdə göldə boğulub



**Azərbaycan Ordusunun zabiti göldə boğulub.**

Kapitan İlham Fərzəliyev dünən Kəlbəcər rayonu ərazisində yerləşən Alagöldə çimərkən boğularaq ölüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən Azərbaycan Ordusunun hərbi qulluqçusu, kapitan Fərzəliyev İlham Allahverdi oğlunun göldə çimərkən boğularaq həlak olması ilə bağlı məlumatı təsdiq ediblər.

*Bildirilib ki, faktla əlaqədar cinayət işi başlanıb, araşdırma aparılır.*

## Son sutkada ölüm faktı qeydə alınmayıb

### Azərbaycanda daha 48 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 48 yeni yoluxma faktı qeydə alınıb, 153 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, son sutkada ölüm faktı qeydə alınmayıb.

İndiyədək ölkədə ümumilikdə 335 339 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 329 191 nəfər müalicə olunaraq sağalıb, 4 959 nəfər vəfat edib. 1 189 nəfər aktiv xəstə sayını təşkil edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 162, bu günə qədər isə ümumilikdə 3 653 074 test icra olunub.*

# Küçələrə zibil atan “zibillər”

## “Abırsız, utanmaz adamlar təhlükəlidirlər”

Sosial şəbəkələrdə yaşlı qadının zibil paketini hərəkətdə olan avtomobilin qapısını açaraq yola atmasını əks etdirən görüntülər yayılıb. "1news.az" saytı hadisəyə toxunaraq yazıb ki, paytaxtda son zamanlar müasir görünüşlü zibil yeşiklərinin sayı artıb. Bu zibil yeşikləri hətta məişət tullantılarının çeşidlənməsinə - ərzaqla, qeyri-ərzaq tullantılarının ayrı-ayrı kompleksləşdirilməsinə imkan verir.

Əvvəlki vaxtlar deyil ki, zibil yeşiyi tapmaq müşkül olsun. Hər küçədə, məhəllədə, səkilərdə müəyyən məsafələrlə zibil yeşikləri qoyulub. Amma nədənsə, yaşlı xanım əlindəki zibil paketini zibil yeşiyinə atmağa ərinib, avtomobil gedə-gedə zibili ətrafa tullayır. Qadının yaşlı olması da bir ayrı ”dərddi”. Uşaq olsa, tutalım, cavan olsa, düşünərsən ki, qanmazlıq edir. Yaşlı qadının ətrafa, cəmiyyətə bu şəkildə meydan oxuması heyrətli olduğu qədər də iyrənc görünür. Yaşlı insan belə bir hərəkətə yol verirsə, cavandan, gəncdən nə gözləyəsən?!. Belə bir insanın uşağa, gəncə hansısa düzgün öyüd verə biləcəyini düşünmək də absurddur. Məlumatda qeyd olunur ki, vətəndaşın bu vecsiz davranışı qanun pozuntusudur. Birincisi, qadın ”Yol hərəkəti haqqında” qanunun maddələrini pozub. Qanuna görə nəqliyyat vasitəsi hərəkətdə ikən qapını açmaq qadağandır. Nəqliyyat vasitəsinin, istər şəxsi avtomobil olsun, istərsə də ictimai nəqliyyat, pəncərəsindən küçəyə zibil, hər hansı əşya atmaq da qadağandır. Qanun pozuntusu bununla bitmir. ”Sənaye və məişət tullantıları haqqında” qanuna görə ətraf mühitin çirkləndirilməsinə görə vətəndaş məsuliyyət daşıyır və bu maddənin icrasına nəzarət DİN-ə tapşırılıb. Onu da qeyd edək ki, video-görüntüdə qanun pozuntusuna yol verən qadının əyləşdiyi avtomobilin dövlət nömrə nişanı aydın görünür; 99 CZ 232. Deməli, DİN-in Bakı Baş Dövlət Yol Polisi İdarəsi məlum dövlət nömrə nişanlı avtomobilin sürücüsünü şöbəyə dəvət edib yaşanan hadisə barədə izahat almaq və qanunun tələbinə uyğun inzibati cəza təyin etmək hüququna malikdir. İş bununla bitirmi?

**Psixoloq Fərqanə Mehmanqızı ”Şərq”ə açıqlamasında qanunla cəzalanmanın vacib olduğu qədər ictimai qınağın da əhəmiyyət kəsb etdiyini dedi:**

- Bu cür insanlar ilk növbədə özlərinə hörmət etmirlər. Özünə hörmət qoyan insan bu hərəkəti etməz. Ətraf mühitə, ətrafdakı insanlara hörmət insanın özünə hörmətindən başlayır. Yaşlı bir qadın belə qeyri-etik, ürəkbulandıran hərəkət edirsə, onun mədəniyyət, etika ilə bağlı anlayışları yoxdur, deməli. Nahaq yerə demirlər ki, danış, görüm kimsən. İnsan var ki, zahirən yaraşıqlı, cazibədar, xüsusilə söhbət qadınlardan gedir, geyimli, baxımlıdır. Vurduğu ətirin qoxusu uzaqdan insanı bihuş edir, amma ağzını açıb danışdımı, üzərindən xətt çəkməli olursan. Zahiri görkəm, yaraşıq insanı tanıtmanın yalnız bir və ən zəif halqasıdır. İnsanı tanıdan onun davranışları, danışığı, ictimai baxışları, insanlara münasibəti, cəmiyyətə münasibətidir. İnsan evində fərddir, cəmiyyət içində isə ictimai varlıqdır. Niyə deyirlər ki, ictimai yerlərdə ”bu qadağandır”, ”filan iş olmaz” və sair. Çünki biz bir insan və vətəndaş olaraq həm də cəmiyyətə bağlıyıq. Cəmiyyətin bir üzvüyük. Təsəvvür edə bilərik, hər kəs o qadın kimi evdən çıxardığı zibilini hara gəldi, küçələrə atsın. Ətrafımız hansı görkəmdə olacaq, bəllidir. İnsan hərəkətinə görə birinci özündən utanmalıdır. Özündən utanmırsa, deməli, heç kimdən utanmayacaq. Abırsız, utanmaz adamlar təhlükəlidirlər. Onlardan nə desən gözləmək olar. İnsan özünə nəyi rəva görürsə, ətrafa da onu rəva görür. Bir insan yaşadığı ərazini çirkləndirirsə, özünü çirkləndirmiş olur.



## “Özündən utanmırsa, deməli, heç kimdən utanmayacaq”

**F.Mehmanqızı bildirdi ki, belə məsələlərdə ən doğru üsul ictimai qınaqdır:**

- Qanunlar öz yerində, amma ictimai qınaq mütləq lazımdır. Biz toplum olaraq üzləşdiyimiz neqativ hallara qarşı ictimai qınaq bildirməyi öyrənməliyik və tətbiq etməliyik. Bir dəfə təsir etməz, iki dəfə təsir etməz, üçüncü dəfə təsir edər. Həm də insan görəndə ki, ictimai qınaq kütləvi xarakterdədir, yeni bir nəfər yox, bir neçə nəfər etiraz bildirir, mütləq özünü yığışdıracaq. Buna el qınağı deyilir. El qınağı insanı çəkinməyə vadar edir.

**Məlahət Rzayeva**







# 136 yaşı olanda qız övladı doğulmuşdu

## Azərbaycanda uzunömürlülüyün səbəbi şəfalı sulardır

**Əhməd Qəşəmoğlu:** "Anamın dayısı Şirin kişi 132 yaşında vəfat etdi. İnanmazsınız, 90 yaşından sonra yenidən 34 dişi çıxmışdı"

AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun direktoru, biologiya elmləri doktoru, professor Ulduz Həşimova "Ahıl insanların sağlamlığına multidissiplinar yanaşma" Milli Türk Geriatriya 2021 konqresində iştirak edib.

AMEA-dan bildirilib ki, alim konqres zamanı "Azərbaycanın uzunömürlülük xəritəsi"ni" nümayiş etdirən professor qeyd edib ki, 90+ yaşlı insanlar dünyanın bütün ölkələrində rast gəlinir, lakin uzunömürlülüyün qrup və ya populyasiya fenomeni yalnız bir neçə ölkədə müşahidə olunur ki, onlardan biri də Azərbaycandır.

U.Həşimova Fiziologiya İnstitutu tərəfindən sağlam qocalmanın öyrənilməsi istiqamətində aparılan tədqiqatlar zamanı respublikada ən yüksək uzunömürlülük indeksi ilə fərqlənən regionların dağlıq və dağətəyi ərazilərə təsadüf etdiyini vurğulayıb. Bildirib ki, 2016-cı ildə Azərbaycanda əhalinin siyahıya alınmasının nəticələrinə görə vaxtilə Qarabağ zonasında yaşayan, sonra isə köçkün həyatı sürən insanlar arasında uzunömürlük potensialı yüksək olaraq qalıb.

Uzunömürlülüyün irsiyyətlə bağlılığına toxunan alim, sağlam həyat tərzi, təmiz ekoloji mühit, düzgün qidalanma və s. kimi amillərlə yanaşı, yaşama müddətinin "kodlaşdırılmasında" genetik faktorun rolunu diqqətə çatdırıb.

### Bu sirri öyrənmək üçün bulaqlarla bağlı araşdırma aparılmalıdır



**Fəlsəfə üzrə elmlər doktoru, sosioloq Əhməd Qəşəmoğlu "Şərq"ə açıqlamasında qeyd edi ki, Azərbaycanda uzunömürlülüyün səbəblərinin araşdırılması üçün ciddi tədqiqatlar aparılmalıdır:**

- Mən də bu məsələylə maraqlanmışam və gəldiyim qənaət budur ki, uzunömürlülüyə təsir edən ən əsas faktor sudur. İnsan orqanizmi üçün faydalı su harda varsa, orda uzunömürlülərə rast gəlinir. Sovet illərində Lerikdə Şirəli Müslümov yaşayırdı. Lerikin Barzavu kəndinin sakini idi, çoban idi. Onun haqqında məlumatlar bundan ibarətdir ki, 160-dan çox, hardasa 168 yaşınadək yaşayıb. 136 yaşı olanda qız övladı dünyaya gəlib. Sovet vaxtı Lerikə Avropadan alimlər gəlib, Şirəli ilə görüşüblər, aydınlaşdırmağa çalışıblar ki, uzun ömürlü olmasının səbəbi nədir. Kəndin bulaqlarını tədqiq ediblər və uzunömürlülüyə səbəb kimi kəndin suyunu göstəriblər. Naxçıvanda məşhur Batabat yaylaqları var. O ətrafda 20-dək bulaq var. Mən uşaq olanda, yaşlılardan, ahıllardan eşidərdim, deyərdilər ki, Qoşabulağın suyundan için. 20 bulaq arasında Qoşabulağı xüsusi seçərdilər, onun suyunu məsləhət görərdilər. Bizim ailədə, nəsildə də uzunömürlülər vardı. Anamın dayısı Şirin kişi 132 yaşında vəfat etdi. İnanmazsınız, 90 yaşından sonra yenidən 34 dişi çıxmışdı. Hamısı da düpbədüz, ağappaq, sağlam dişlər. Soruşurdum ondan ki, Şirin dayı, bu qədər yaşamağının səbəbi nədi? Deyirdi, ay bala, elə yemək ye ki, nə ağzını yandıran olsun, nə də üşüdən. Həm də yeməyi ağızda çox çeynəmək lazımdı. Deyirdi, "qardaşım istini soyuğa qatdı-qarışdırdı, ona görə cavan öldü (86 yaşında!). Ümumiyyətlə, suyun insan orqanizminə müxtəlif təsirləri məlumdur, o cümlədən də, hesab edirəm ki, uzunömürlülüyə də şəfalı sular səbəb olur. Hesab edirəm ki, uzunömürlülüyün sirrini bilmək üçün bulaqlarla bağlı araşdırma aparılmalıdır.

Qarabağ əhalisi arasında köçkünlüyə, uzun illər məşəqqətli həyat sürmələrinə baxmayaraq uzunömürlülüyün qorunub saxlanmasına da əlbəttə ki, o yerlərin təbii zənginlikləri, havası, suyu əsas səbəbdir. Uşaq hansı mühitdə böyüyür, haranın havasını alırsa, orqanizmi ona uyğun möhkəm olur. Qarabağ, istər dağlıq olsun, istər dağətəyi məlum məsələdir ki, səfalı təbiətə malikdir, şəfalı bulaqlara malik yerdir. Təbii ki, belə bir ərazidə anadan olub ömrünün bir hissəsini orada yaşamış insanlar nə qədər ağır illər keçirsələr də, maya saf, təmiz olduğu üçün orqanizmləri də möhkəm olur.

**Məlahət Rzayeva**

# Təhlükə hələ sovuşmayıb

## Nə qədər xəritə verilsə də Ağdamda qeydiyyatı aparılmayan külli miqdarda mina var



**Ötən gün Ağdamda itkin düşən şəxsin meyiti tapılıb. Ağdam rayon sakini Cəsarət Hətəmxanov iyunun 7-də yaşadığı evdən çıxıb və bir daha geri qayıtmayıb.**

1978-ci il təvəllüdlü C.Hətəmxanovun itkin düşməsi ilə bağlı rayon Polis Şöbəsinə daxil olmuş müraciətlə əlaqədar Ağdam RPŞ-nin əməkdaşları və digər aidiyyəti qurumlar tərəfindən işğaldan azad edilmiş ərazilər də daxil olmaqla, bütün rayon ərazisində axtarış tədbirləri aparıb. İyunun 17-də səhər saatlarında C. Hətəmxanovun meyiti Ağdam rayonunun işğaldan azad olunmuş Seyidli kəndi ərazisində tapılıb. C.Hətəmxanovun ərazidə mina partlayışı nəticəsində həlak olduğu deyilir. Meyitin götürülməsi üçün əraziyə Fövqəladə Hallar Nazirliyi və ANAMA əməkdaşları cəlb edilib.

**Mövzu ilə bağlı BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, minalanmış ərazilərdə dinc əhalinin və hərbçilərin həlak olması faktları üzüntü verici hallardır:** "Bu, erməni vandalizminin təzahürüdür. Hesab edirəm ki, Ermənistandan mina xəritələri nə yolla olursa-olsun, təcili alınmalıdır. Bu xəritələrsiz minaların təmizlənməsi illər çəkə bilər və heç də tam təmizlənib qurtarmasına da əmin olmaq olmaz".

**A.Qasımov qeyd edib ki, onsuz da nə qədər xəritə ilə iş aparılsa belə təsadüfi, qeydiyyatı aparılmayan külli miqdarda mina ola biləcəyi ehtimalı böyükdür:** "Bu günləri biz ermənilərin verdiyi mina xəritələrinin reallığına inanmaq məcburiyyətindəyik. Çünki əlimizdə bu xəritələrdən başqa real sübutlar yoxdur. Sadəcə, bu xəritələrin reallığı yerində yoxlanılmalıdır. Qeyd edim ki, mina xəritələrinin Ermənistandan alınması Qarabağda və Ermənistanda gedən siyasi proseslərin tərkib hissəsinə çevrilib, yəni proses siyasiləşib. Bu baxımdan Azərbaycan bundan məharətlə istifadə etməli, bu prosesləri doğru idarə etməlidir".

**Aynurə Pənahqızı**

# İranda seçkilərin favoriti bəllidir

İyunun 18-də İran İslam Respublikasında 13-cü prezident seçkiləri keçiriləcək. Qanuna əsasən, 17 iyun ölkə üzrə "sükut günü"dür. Qeyd edək ki, İranda COVID-19 pandemiyası səbəbindən səsvermə sosial məsafə və gigiyenik tədbirlər gözlənilməklə keçiriləcək. Səsvermə saat 07:00-da başlayacaq və 00:00-da başa çatacaq.



## Mühafizəkarların lideri Rəisi qalib olacaq

"İran daxilində siyasi repressiyalar artacaq və insan hüquqları sayəsində geriləmələr labüddür"

Əgər ehtiyac olarsa, Daxili İşlər Nazirliyinin nəzdində yaradılmış Seçki Qərargahı səsvermə prosesini gecə saat 02:00-dək uzada bilər. Rəsmi məlumata görə, İranda 59 milyondan çox seçici var. Bu il 1 milyon 400 min nəfər səsvermədə ilk dəfə iştirak edəcək. Bir sıra xarici ölkələrdə də seçki məntəqələri yaradılıb. İrandan kənarda yaşayan 3,5 milyon seçici ölkə xaricində səs verəcək. Prezidentlik postu uğrunda 4 namizəd mübarizə aparır - Məhkəmə Hakimiyyətinin sədri İbrahim Rəisi, Məsləhət Şurasının katibi Möhsün Rzai, deputat Əmirhüseyn Qazizadə-Haşimi və Mərkəzi Bankın sabiq direktoru Əbdünnasir Himməti. Səsverməni ilkin nəticələrinin iyunun 19-da açıqlanacağı gözlənilir. Namizədlər bərabər səs toplasalar, seçkilərin ikinci turu keçiriləcək. Bəs yeni prezident seçkisinin Azərbaycanla İran əlaqələrinə təsiri olacaqmı?

**MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə" Şərq"ə açıqlamasında bildirib ki, İranda prezident seçkiləri mühafizəkarların qələbəsi ilə yekunlaşacaq. Onun sözlərinə görə, bu seçkilər əvvəlki seçkilərdən fərqli olaraq bir o qədər də ciddi şəkildə siyasi gündəm olmayacaq:** "Çünki artıq seçkinin favoriti var. Bu, mühafizəkarların lideri İbrahim Rəisidir. Onun qalib olacağı indidən bəllidir. Çünki islahatçıların güclü namizədi seçkilərə buraxılmadı və mühafizəkarlar hazırkı seçkiləri öz nəzarətinə aldılar. Bu da İranda sistem daxili demokratiyanın olmadığını göstərir. Halbuki, İran bu illərə qədər keçirdiyi seçkiləri demokratik seçki adlandırırdı. Qeyd edək ki, islahatçıların mövqelərinə zərbə vurulandan sonra İran əhalisi bu seçkilərdə maraqlı deyil. Əgər islahatçıların namizədi seçkilərə qatılacaqdısa, onların namizədi qalib gələcək. Çünki İran-ABŞ arasında nüvə anlaşması masadadır və iqtisadi sanksiyaların aradan götürülməsi gözlənilir. Bu danışıqları da məhz islahatçılar başlayıb. Amma İbrahim Rəisinin prezident seçilməsi ABŞ-la danışıqlara zərbə vurmayacaq. Nüvə danışıqları davam edəcək. İran da sanksiyaların götürülməsində maraqlıdır".

**M.Əsədullazadə vurğulayıb ki, İbrahim Rəisinin seçilməsi Yaxın Şərqdə aparılan siyasətdə qonşularla münasibətlərin normallaşmasına istiqamətlənəcək:** "Ancaq İran daxilində siyasi repressiyalar artacaq və insan hüquqları sayəsində geriləmələr labüddür. Bundan əlavə, İranda azərbaycanlıların və digər xalqların hüquqları tanınmayacaq. Ötən gün İbrahim Rəisi Təbrizdə çıxışında azərbaycanlılara imtiyazlar tanıyacağını elan etdi. Bu bölgənin inkişaf etdirəcəyinə söz verdi. Təbii ki, bu, seçkiöncəsi səslərin qazanmasına hesablanıb. İbrahim Rəisi seçiləndən sonra, birinci siyasi repressiyaları Təbrizdən və azərbaycanlılardan başlayacaq. Çünki azərbaycanlılar bu bölgənin inkişaf etdirilməsini və milli haqlarını tələb edirlər. İbrahim Rəisi uzun illər məhkəmə hakimi və baş prokuror olaraq məhz bu istiqamətlərdə əsas cəza verən kimi tanınıb. Onun yenidən cəza aparatını dövlət siyasətinə gətirməsi mümkündür. İranın Azərbaycanla əlaqələrinə gəldikdə isə Türkiyə Azərbaycan arasında imzalanan Şuşa Bəyannaməsi İranın əlini-qolunu bağlayacaq. İran çalışacaq ki, Azərbaycanla müəyyən əlaqələri qoruyub saxlasın".

**Aynurə Pənahqızı**

# İndi də Rusiya küncə sıxışdırıldı

Prezident İlham Əliyev Şuşaya səfər zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla yolboyu söhbətində bir çox məqamlara toxunub. Prezident qeyd edib ki, Qarabağ ərazisi minalarla doludur və buradan sağa-sola getmək olmaz. O diqqətə çatdırıb ki, 15 əsir verərək, Ağdam rayonunun bütün mina xəritələri alınıb. Ərdoğanın - "Dedikləri yer doğru çıxdı", - sualına İlham Əliyev - "Doğrudur.

## ABŞ-ın mina xəritələrinin qaytarılması ilə bağlı vasitəçiliyi Azərbaycanın xeyrinədir




"Birincisi, Azərbaycan bölgədə Rusiyanın vasitəçiliyi qarşısında alternativ imkanı qazandı və bu, diplomatik danışıqlarda istifadə edilə biləcək rıçaqlardan biri ola bilər"

Çünki amerikalılar zamin durdular. Tək bir rayonda 97 min mina basdırılıb", - cavabını verib. Azərbaycan Prezidenti onu da qeyd edib ki, bu minalardan 54 mini tank, qalanları isə piyada əleyhinədir.

Siyasi-şərhçi Asif Nərimanlı "Şərq"ə Ağdamın mina xəritəsinin alınması prosesində ABŞ-ın vasitəçilik etdiyi məsələsindən söhbət açıb. Analitik qeyd edib ki, 15 erməni diversanta qarşı mina xəritəsinin alınması prosesində ABŞ-ın vasitəçilik etdiyi Xarici İşlər Nazirliyinin məlumatında qeyd olunurdu və Prezident İlham Əliyev də Şuşa səfəri zamanında bunu təsdiqlədi: "ABŞ bu məsələdə vasitəçilik etməklə bölgəyə qayıtmaq istəyir və belə demək mümkünsə, ilk addımı atmış oldu. Çünki müharibədən sonra bütün məsələlərdə vasitəçiliyi öz üzərinə götürən Rusiya mina xəritələrində heç nə edə bilmədi, yaxud da etmək istəmədi. ABŞ Rusiyanın edə bilmədiyini etməklə bölgədə vasitəçilik edə biləcəyini nümayiş etdirdi və tərəflər arasında nüfuzunu artırmış oldu. ABŞ-ın bu vasitəçiliyi bölgədə Rusiyanın vasitəçiliyinə kiçik də olsa alternativ addım idi. Və Azərbaycan bundan həm də Rusiya qarşısında alternativin olduğu faktı kimi isifadə edə bilər. Prezidentin Şuşada ABŞ-ın vasitəçiliyini vurğulaması da mesaj hesab oluna bilər. Lakin bu prosesdə əsas məqam mina xəritələri və erməni diversantlar məsələsinin humanitar fəaliyyət kateqoriyasına daxil olmasıdır".

**A.Nərimanlı vurğulayıb ki, ABŞ və Fransa Minsk qrupunun yenidən dirildilməsi və yeni danışıqlar masasının qurulması istəklərini dilə gətirmişdi:** "Bu ölkələrin məqsədi münaqişənin həlli zamanı uzaq düşdükləri bölgəyə yenidən qayıtmaqdır. Azərbaycan bunu qəbul etmir və Minsk qrupunun humanitar fəaliyyət göstərə biləcəyini, iki ölkə arasında normallaşma prosesində iştirak edə biləcəyini açıqlamışdı. Prezident İlham Əliyevin də ABŞ-a Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində iştirak etmək çağırışı etmişdi. Bu baxımdan, ABŞ-ın mina xəritələrinin alınmasında vasitəçilik etməsi bir neçə aspektdən vacibdir. Birincisi, Azərbaycan bölgədə Rusiyanın vasitəçiliyi qarşısında alternativ imkanı qazandı və bu, diplomatik danışıqlarda istifadə edilə biləcək rıçaqlardan biri ola bilər. İkincisi, Minsk qrupunun bundan sonrakı fəaliyyəti üçün Azərbaycanın istədiyi, təklif etdiyi formada presedent yarandı. Bu, Minsk qrupunun Azərbaycanın istədiyi formatda fəaliyyəti deməkdir. Üçüncüsü, ABŞ da bölgəyə Azərbaycanın istədiyi kimi, humanitar fəaliyyət çərçivəsində gəldi. Bütün bunlar münaqişənin bitdiyi, gələcəyə baxmağın lazım olduğu reallığının Qərbdə də qəbul edildiyini deməyə əsas verir".

**Aynurə Pənahqızı**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



İllər boyu Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində xalqımız minlərlə şəhid verib. Onlar arasında xidməti vəzifələrini yerinə yetirərkən həlak olan jurnalistlər də var. Bu ay baş verən hadisədə olduğu kimi... 4 iyun 2021-ci il tarixində işğaldan azad edilmiş Kəlbəcərin Susuzluq kəndinə çəkiliş aparmağa gedən jurnalistlər - Azərbaycan Televiziyasının operatoru, 1989-cu il təvəllüdlü Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin - "AzərTAC"-ın müxbiri, 1982-ci il təvəllüdlü Məhərrəm İbrahimov (Əlioğlu) həlak oldular.

# Jurnalistikamızın şəhidləri...

## Onlar öz qanları ilə tarix yazıblar

Xatırladaq ki, onlar xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuşdular. Əlbəttə ki, onların əllərində və çiyinlərində silah və sursat deyil, mikrofon və kamera idi. Məqsədləri isə bir idi - 30 ildir vəhşi düşmən, vandal erməni tapdağında qalaraq viran edilən dədə-baba torpaqlarımızın viran edilmiş halını çəkib dünyaya göstərmək. Aylardır bu media nümayəndələri azad edilmiş torpaqlarımızı qarış-qarış gəzərək işıqlandırır, sənədləşdirir və ermənilər tərəfindən dəymiş ziyanın müəyyənləşdirilməsi üçün öz vəzifə borclarını yerinə yetirirdilər. Təbii ki, onların topladıqları materiallar Azərbaycan xalqına yüzilliklər boyu lazım olacaq.

Bir məqamı diqqətə çatdıraq ki, "AzərTAC" və Azərbaycan Televiziyası tərəfindən ezamiyyəti dəyişdirmək barədə müraciətin olmasına baxmayaraq onlar geri dönmək istəmirdilər. Bu işi böyük əzmlə, fədakarlıqla, həvəslə yerinə yetirirdilər. Çünki Sirac Abışov hələ uşaq olarkən işğal nəticəsində Qubadlıdan məcburi köçkün düşmüş, illər sonra öz kəndlərini azad görə bilmişdi. "Mən çəkdiyim o kadrlarda 1 milyon məcburi köçkünün hissini yaşaya-yaşaya çəkirəm... 50 milyonluq Azərbaycan xalqının gözü ilə baxıram hamısına..."- deyirdi Sirac. Təəssüf ki, onların arzuları yarımçıq qaldı və mənfur ermənilər tərəfindən xaincəsinə basdırılmış minanın qurbanı oldular. Bu, eyni zamanda, Azərbaycan jurnalistikası və mediası üçün də

## Azərbaycanın onlarla media fəalı erməni terrorunun qurbanı olub

böyük itki idi. Çox təəssüf ki, Birinci Qarabağ müharibəsi (1988-1992-ci illər) dövründə də 13 azərbaycanlı jurnalist xidməti vəzifəsini yerinə yetirərkən erməni terrorunun qurbanı olub. Onlardan 9-u isə şəhid olub. Çingiz Mustafayev, Salatın Əsgərova, Osman Mirzəyev, Alı Mustafayev, Fəxrəddin Şahbazov və digər qəhrəman şəhid jurnalistlərin müqəddəs yolunu davam etdirən Sirac və Məhərrəm də uğrunda bütün təhlükəni gözə aldıqları Vətən torpağında minanın qurbanı oldular.

Vətən müharibəsi dövründə də jurnalistlərimiz kifayət qədər riskli vəziyyətlərlə qarşılaşıblar. 44 günlük müharibə ərzində erməni terrorçuları dəfələrlə peşə fəaliyyətini həyata keçirən və fərqləndirici gödəkcələrində olan jurnalistlərə atəş açıblar, nəticədə media nümayəndələri arasında yaralananlar da olub. Xatırladaq ki, İkinci Qarabağ müharibəsində isə təqribən 27 nəfər jurnalist ehtiyatda olan zabit və digər kateqoriyalar qismində səfərbərlik proqramına cəlb ediliblər ki, onlardan 2 nəfər döyüşlərin gedişində yaralanıb və müxtəlif dərəcəli xəsarətlər alıblar.

Qeyd edək ki, dünya KİV-ləri Kəlbəcərdə media nümayəndələrinin minaya düşərək həlak olması ilə bağlı Azərbaycanın media ictimaiyyəti ilə həmrəylik nümayiş etdiriblər. Məsələn, İspaniyanın "El Boleten" onlayn qəzetində dərc edilmiş "Jurnalistika matəm içərisindədir" sərlövhəli məqalədə Kəlbəcərdə minaya düşmüş həmkarlarımız barədə yazıblar. Ümumiyyətlə, dünyanın bir çox KİV-ləri jurnalist həmrəyliyi nümayiş etdirərək, faciəvi hadisədən bəhs edən çoxsaylı informasiya və şərhlər yayaraq bu mövzunu gündəmdə saxlamışdılar. Məsələn, iyunun 11-də Avropa Xəbər Agentlikləri Alyansının onlayn seminarı minaya düşərək həlak olan azərbaycanlı jurnalistlərin xatirəsinin anılması ilə başlayıb. Dünyanın ən mötəbər xəbər agentliklərindən biri olan "Press Association" agentliyinin baş icraçı direktoru Klayv Marşal EANA-nın rəhbərliyi adından Azərbaycanın media ictimaiyyətinə başsağlığı verib. Qardaş Türkiyənin Anadolu Agentliyi, "Haber Global" televiziya kanalı və digər KİV-ləri Ermənistanın mülki əhalini və jurnalistləri hədəfə alan əməllərini pisləyib, bu hadisəni terror aktı adlandırıb. Həmçinin, Rusiya, Ukrayna, Qırğızıstan, Əlcəzair, Misir, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirliklərinin saytları və ərəbdilli digər informasiya resursları azərbaycanlı jurnalistlərin həlak olması barədə xəbərlər dərc etməklə yanaşı, Azərbaycan media ictimaiyyətinin kədərinə şərik çıxdıqlarını bildiriblər.

Azərbaycanlı jurnalistlərin minaya düşərək faciəli şəkildə həlak olmaları Qərb mətbuatının da diqqət mərkəzində olub. "Reuters", "Associated Press" agentlikləri, ABŞ-ın "The USA Tribune" və "Wabash Plain Dealer" qəzetləri, Fransanın "Mediapart", "Musulmansenfrance", "Lorientlejour", "Caucasefrance" informasiya portalları, Kanadanın "Alkalimanews" saytı, ispandilli KİV-lər - "Horrarpress" (İspaniya), "Snoticias" (Kolumbiya), "Expresionmexico", "Mipuntodevista", "Clubjuridico" (Meksika), "Innova.news" (Paraqvay), "Espacocaspio" (Braziliya), "Eldiariodehonduras" (Honduras) və digər informasiya portalları oxucularına bununla bağlı operativ xəbərlər çatdırıblar.

Qeyd edək ki, şəhidlərimiz hər zaman dövlətin diqqətindən kənarda qalmır. Bu dəfə də, yəni iyunun 14-də dövlətimizin başçısının imzaladığı Sərəncamla Kəlbəcərdə minaya düşərək həyatlarını itirmiş hər üç şəhidimiz 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Təbii ki, bu, onun göstəricisidir ki, Vətən uğrunda canından keçənlər heç vaxt nə xalqımız, nə də dövlətimiz tərəfindən unudulmur.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən media eksperti Tural İsmayılov vurğulayıb ki, Azərbaycanda hər zaman media fəalları erməni terrorunun qurbanı olublar:** "Jurnalistlərin müxtəlif qaynar bölgələrdə həyatlarını itirmələri onların peşə fəaliyyətlərinin riskli mahiyyətindən irəli gəlir. Çox təəssüf ki, müharibə başa çatsa da, mina qurbanlarının sayı günbəgün artır. Üzücü haldır ki, jurnalistlərimiz də onların sırasındadır. Bu, bir daha onu göstərir ki, minalanmış ərazilər problemi eyni zamanda jurnalistikanın fəaliyyətini də məhdudlaşdırır. Buna görə də Ermənistana beynəlxalq təzyiqlər olmalı və minalanmış ərazilərin xəritələri alınmalıdır".

**T.İsmayılov əlavə edib ki, hətta Birinci Qarabağ savaşında da jurnalistlərimiz arasından həm şəhidlərimiz, həm də itkilərimiz olub:** "Sonuncu olaraq iki jurnalistimizin Kəlbəcərdə düşmənin mina terroruna qurban çevrilməsi isə həddindən artıq üzücü bir hadisədir. Təəssüflər olsun ki, beynəlxalq media qurumları, əslində dünyada jurnalistlərin hüquqlarını qorumaqda məsul olan qeyri-hökumət təşkilatları iki azərbaycanlı jurnalistin erməni terroruna qurban getmək məsələsində istənilən fəallığı və aktivliyi nümayiş etdirmədilər. Ölkə başçısı İlham Əliyevin şəhid olan iki jurnalistimizi 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif etməsi, həm vətəndaşlarımızın, həm də bütün jurnalistlərimizin ürəyincə olmuş bir qərar oldu. Bu onun göstəricisidir ki, Prezident İlham Əliyev həmkarlarımızın fədakarlıqlarını hər zaman olduğu kimi yenə də diqqət mərkəzində saxladı. Bu, dövlətimizin başçısının kütləvi informasiya vasitələrinə göstərdiyi diqqətin bariz nümunəsidir. Bu, həm də dövlətimizin başçısının həmkarlarımızın fədakar fəaliyyətinə verdiyi qiymətin təzahürüdür. Əslində peşə fəaliyyətlərini yerinə yetirərkən, yəni işğaldan azad olunmuş torpaqlarımızda çəkilişlər hazırlayarkən həmkarlarımız terrora qurban getdilər. Bu hadisə bir daha göstərdi ki, erməni terrorunun hədəfi nə qədər çox rakurslu və çox sahəlidir. Təkcə jurnalistlər deyil, istənilən peşə sahibi olan mülki vətəndaşlarımız da erməni terrorunun həmişə hədəfində olublar".

İşğaldan azad edilmiş ərazilərdə çəkiliş aparan qrupun üzvü, AzərTAC"-ın fotomüxbiri Roman İsmayılov şəhid jurnalistlərlə bağlı xatirələrini bölüşüb, onların yüksək ordenlə təltif olunmalarının onda böyük qürur hissi oyatdığını bildirərək söyləyib: "Bu onu göstərir ki, Vətəni uğrunda canından keçənlər heç vaxt nə xalqımız, nə də dövlətimiz tərəfindən unudulur".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# “Son dəqiqəsinə qədər silahı əlindən yerə qoymayıb”

## *Sübhan 300 erməniyə qarşı 17 hərbçi ilə döyüşə girib*

"Son nəfəsinə kimi döyüşən qardaşım başından aldığı snayper gülləsi ilə şəhidlik zirvəsinə ucalıb. Döyüş yoldaşlarının dediyinə görə, oktyabrın 19-u neytral ərazidə olduqları üçün şəhid olan əsgərləri düşmən tapa bilməsin deyə elə oradaca basdırmışdılar"

Çoxları onu ”Bosu” kimi tanıyır. Doğum günündə torpağa tapşırılan, baş gizirimiz. 1983-cü il oktyabrın 23-də Salyan rayonunun Marşlı kəndində dünyaya gəlib. 1989-cu ildə doğulduğu kənddə təhsil almağa başlayıb. 2001-ci ildə tam orta təhsilini başa vuraraq hərbi xidmətə yollanıb. İlk hərbi xidmətini Bakıda ”N” saylı hərbi hissədə keçirdikdən sonra 2002-ci ildə XTQ-də (Xüsusi Təyinatlı Qüvvələrdə) gizirlik üzrə oxuyub. 2002-ci ildən gizir kimi fəaliyyətə başlayıb. 2008-ci ildə baş gizir vəzifəsinə yüksəlib. Aprel döyüşlərində də iştirak edən Cəbrayılov II Qarabağ müharibəsi zamanı ilk gündən böyük şücaət göstərərək Füzulinin, Suqovuşanın, Hadrutun, Cəbrayılın, Zəngilan və Qubadlının işğaldan azad edilməsində, bununla yanaşı bir çox yaralı qazimizin xilas edilməsində də fəal iştirak edib.

Şəhid Sübhan Cəbrayılov ölümündən öncə 2008-ci ildə ”Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi” Yubiley medalını, 2012-ci ildə ”Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalını, 2013-cü ildə ”Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi” Yubiley medalını, 2018-ci ildə ”Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi” Yubiley medalını və ”Qüsursuz xidmətə görə” 2-ci dərəcəli medalını, ölümdən sonra isə ”Vətən uğrunda”, ”Vətən Müharibəsi Qəhrəmanı”, ”Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunub.

**Şəhidimiz haqqında bilgi almaq üçün anası Ləzifə xanım Cəbrayılovaya zəng vurdum. Təsadüfdən Ləzifə ana həmin an oğlunu ziyarətə getmişdi. Boğuq səslə dediyi bir neçə cümləni qələmə almaq, azı onları dinləmək qədər çətin idi.**

- Yoldaşları ona ”Cəbi”, ”Canavar Cəbi” deyirdilər. Xüsusi Təyinatlı Qüvvələrdən idi oğlum. Bax, indi də oturmuşam onların - şəhidlərin yanında. Son danışığımızda ”Ala-ala gedirik! Qələbə bizimlədir! Torpaq bizi gözləyir!” dedi. Bizdən önəmli idi onun üçün Vətən. Oktyabrın 23-ü ad günü idi. Həmin gün cənazəsini gətirdilər. Oğlum doğum günündə mənə ”Şəhid Anası” sözünü verdi, getdi. Yoldaşlarından soruşmuşdum ki, nə deyirdi son günlərində. ”23-ü doğum günümü Şuşada keçirəcəm. Orda namaz qılacam” deyirmiş. İndi onun arzusunu mən yerinə yetirəcəm.

Şəhid Gizir Sübhan Cəbrayılovun bacısı Kəmalə xanım isə hələ də keçmişin qapılarını bağlamayıb. Onun üçün günəş dünəndə, qardaşının sağ olduğu, bir yerdə olduqları sabahda açır. Suallara cavab verərkən dediyi hər iki sözündən biri ”Qardaşım” idi. Kəmalə xanım üçün bu günə qədər açılan ən ağır səhər bir zamanlar gülə-gülə, sevinərək oyandığı gün idi. Qardaşının doğum günü. Bundan sonra həm də, torpağa tapşırıldığı gün. O, həmin günü belə xatırlayır:

- Qardaşımı gözümüzün qabağında məzara qoydular. Buz heykələ dönüb baxa-baxa qaldıq və olanlarla razılaşdıq. Qardaşım namaz qılan, oruc tutan, əli Quranlı idi. Son arzusu da Şuşa məscidində namaz qılmaq idi. Namərd düşmən yarı yolda qoydu onu. Allah qismət eləsə, onun arzusunu anam yerinə yetirər. Mən isə onun şəhid olduğu torpağa gedib qanı tökülən torpaqda diz çökəcəm. Qardaşım mənim and yerim, qürur yerimdir. Nə yaxşı ki, mən onun bacısıyam! Nə yaxşı ki, Sübhan mənim qardaşımdır. Çox şükür Allaha.

### Həmişə deyib gülən adamın həmin gün gözləri qəm içində idi...

**- Sonuncu görüşünüzü necə xatırlayırsınız?**

- Payız aylarının əvvəlləri idi. Sonuncu dəfə bizə ailəsi ilə birgə gəlmişdi. Ən sevdiyi balıq yeməyini bişirmişdim ona. Nə qədər ciddi işi olsa da, bir o qədər də şən, pozitiv idi qardaşım. İnsan enerji alırdı. O bizdə olanda hamımız şənlənirdik ki, Sübhan qonaq gəlib. Bir həftə sonra zəng elədi ki, müharibə olmayacaq, sadəcə, təlimlərə gedirəm. Təlimlərə getməzdən bir gün öncə görüntülü danışdıq. Bütün ailə zəngə qoşulmuşdu. Həmişə deyib-gülən adam nəsə həmin gün danışmırdı. Qardaşımın gözündən qəm töküləndü. Sonuncu danışığımız elə oldu. Müharibə başladığı gün - sentyabrın 26-sı mənə torpağın üstündə uzandığı şəkli göndərmişdi. Mən narahat oldum. O isə mənə ”Nə olub ki, açıq havadır, istirahət edirəm” dedi. Sən demə, gözləmədə imişlər, səhər çıxacaqlarmış. Bu haqda bizə deməsə də, həyat yoldaşına demişdi.

### 300 erməniyə qarşı 17 nəfər idilər....

**- Hansı şəraitdə şəhid olduğuna dair məlumatınız varmı?**

- Qardaşım Qubadlı uğrunda döyüşlərə gedərkən digər əsgərləri arxaya verərək, öz 17 nəfərlik döyüş yoldaşları ilə 300 erməni ilə döyüşə girib. Son dəqiqəsinə kimi silahını əlindən yerə qoymayıb. Bir neçə dəfə vurulsa da, əynindəki bronjilet onu qoruyub. Həmin 17 nəfərlik döyüşçülərdən bir neçəsi şəhid olub. Onlardan ən sonuncusu qardaşım idi. Son nəfəsinə kimi döyüşən qardaşım başından aldığı snayper gülləsi ilə şəhidlik zirvəsinə ucalıb. Döyüş yoldaşlarının dediyinə görə, oktyabrın 19-u neytral ərazidə olduqları üçün şəhid olan əsgərləri düşmən tapa bilməsin deyə elə oradaca basdırmışdılar. Həmin ərazilər minalanmasına baxmayaraq yoldaşları dəfn olunan beş şəhidi tapıblar. Oktyabrın 23-ü, 37 yaşı olan günü qardaşımın cənazəsini bizə verdilər.

### “Əgər Şəhid olsam, başını dik tut!”

**- Uşaqlığınız necə keçib, yadınızda qalan maraqlı xatirələriniz varmı?**

- Aramızda 6 yaş fərq var idi, o mənim əlimdə böyüyüb. Ona görə də mən ona ”balam” deyirdim. Ata evimizdə qardaşımın atdığı hər addım, etdiyi hər dəcəllik, qayğıkeşlik bir an belə gözümün önündən getmir. Çox güclü, qüvvətli uşaq idi. Heç vaxt heç nədən şikayətlənməzdi.

Həyat dolu insan idi. Bir az küsəyən olsa da, kin saxlamazdı. Zarafatcıl idi, həm də ağıllı, fərqli düşüncələri vardı. Aprel döyüşlərindən sonra mən onu hər dəqiqə itirmək qorxusu ilə yaşayırdım. Ona deyəndə ki, ”Bəsdir daha, getmə”, o mənə belə cavab verirdi: ”Mən getməyim, o



getməsin. Bəs kim getsin torpaqları almağa?! Qismətimdə nə varsa, onu da görəcəm”. Allah ona ən yüksək taleyi yazdı. Şəhidlik zirvəsinə yüksəldi. Mənə ”Əgər şəhid olsam, başını dik tut” deyirdi.

### Qardaşımın arzusunu yerinə yetirəcəyik

**- Şəhidimizin geridə qalan hansı arzuları var?**

- Qardaşımın ən böyük arzusu övladlarını ali təhsilli böyütmək idi. Mənim uşaqlarım ali təhsillidir. Qardaşım da mənim övladlarımı öz balalarına örnək kimi göstərirdi. Allah Sevdanı (Şəhid Sübhan Cəbrayılovun həyat yoldaşı) övladlarına çox görməsin, amma mən bir bibi kimi son nəfəsimə qədər o uşaqların arxasında dayanacam. Eyni zamanda mənim öz uşaqlarım da. Qardaşımın arzusunu yerinə yetirəcəyik.

### Müharibə zamanı gecələr yatmırdım

**- Əvvəllər başqa şəhid ailəsi gördükdə nə hiss edirdiniz?**

- Qardaşımdan öncə kəndimizə Mirmurad Rzazadə adlı şəhid gəldi. O xəbəri eşidən gün mən özümə gələ bilmirdim. Mənə elə gəlirdi ki, indi qardaşımın da xəbəri gələcək. Müharibə zamanı mən gecələr belə yatmırdım. Bütün gün əsgərlərimizə, qardaşıma dualar edirdim.

### Allah, canı canla dəyiş!

**- Şəhid xəbərini necə aldınız?**

- Qardaşımın xəbəri gələn gün biz dəqiq heç nə bilmirdik. Mən Allaha üsyan edirdim. ”Canı Canla dəyiş, məni öldür”. Tək ayaqla gəlsin, mən onun ayağı olaram. Gözləri olmasın, mən ona göz olaram. Mən ona ürəyimi verərəm. Amma nəfəsi gəlsin. Övladlarının ataya ehtiyacı olan vaxtı o gedə bilməzdi. Mən əslində bilirdim... Çox zəif, iradəsiz insanam mən, deyirdim qardaşıma. ”Əksinə, çox, dözümlüsən” deyirdi mənə. Bəlkə də indiki iradəmi qardaşım mənə verib getdi.

### İşindən heç danışmazdı

**- Sizə hərbi xatirələrindən danışardımı?**

- İşindən heç danışmazdı, nəsə soruşsam belə sualımı cavabsız qoyardı.

Dayımın qisası alındı!

**- Qələbə xəbəri sizə hansı hissləri yaşatdı?**

- Xəbəri xaricdə təhsil alan oğlumdan aldım. Gecə yarısı mənə zəng etdi və ”Ana, qalx. Dayımın qisası alındı!” dedi. Həmin an sanki beynim donmuşdu, heç nə fikirləşə bilmirdim. Səhərədək bir nöqtədə donub qaldım. Hər yerdə, hamının arasında qardaşımı axtarırdım.

*Qəhrəmanlar can verər, Yurdu yaşatmaq üçün! İndi yurd tamdır, bütövdür! Azaddır! Qəhramanlar sayəsində! Şəhidlərimiz, Qazilərimiz sayəsində! Şəhid Cəbrayılov Sübhan sayəsində!!! Allah bütün şəhidlərimizə rəhmət etsin.*

**Fatma Abdulla**

# İki tələb qoyulub

Milli Televiziya və Radio Şurası (MTRŞ) "Media haqqında" qanun layihəsində televiziya və radio yayımına dair əsas yenilikləri açıqlayıb.

*İnternet televiziya kanallarının lisenziyalaşdırılması üçün sadələşdirilmiş sistem nəzərdə tutulub*



**Osman Gündüz: "İndiki halda MTRŞ-nin ilkin açıqlamaları internet medianın inkişafı ilə bağlı müəyyən narahatçılıqlar yaradır"**

MTRŞ-dən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, "Media haqqında" qanunda televiziya və radio yayımında əsas yeniliklər kimi, məzmun üzrə cavabdehlik daşıyan yayımçılıq, retranslyasiya xidməti həyata keçirərək məzmun üzərində cavabdehlik daşımayan operator fəaliyyətinin ayrılması, tezlik və peyk tutum resursları tələb edən audiovizual media fəaliyyətinin müsabiqə əsasında lisenziyalaşdırılması, digər audiovizual media fəaliyyəti üçün isə sadələşdirilmiş lisenziya alınması prosedurun tətbiqini qeyd etmək olar. Bildirilib ki, qanun layihəsində internet televiziya kanallarının lisenziyalaşdırılması üçün sadələşdirilmiş sistem nəzərdə tutulub: "Bunun üçün sadəcə olaraq qanunda müəyyən edilmiş tələblərə cavab vermək və MTRŞ-yə müraciət etmək lazım olacaq. Media subyektləri üçün təsbit olunan ümumi tələblərdən başqa, internet televiziya kanalları üçün spesifik iki tələb müəyyən olunub. Birinci tələb odur ki, kanalın özünün saytı olmalı və həmin saytdan yayım aparmalıdır. İkinci tələb isə bu yayımın gün ərzində minimum müəyyən saat olmasıdır. İlkin olaraq 8 saat nəzərə almışdıq, lakin bir sıra populyar internet kanalların rəhbərləri ilə məsləhətləşmələrdən sonra bunun 6 saata salınması üçün qanun layihəsində dəyişiklik olunması ilə bağlı təklif verəcəyik. Təbii ki, bu tələbin də artıq olması barədə fikirlər olacaq. Lakin bilməliyik ki, həftədə 1-2 dəfə bir neçə saatlıq efirə çıxaraq videobloginqlə məşğul olmaq audiovizual media fəaliyyəti ilə məşğul olmaq kimi qəbul edilə bilməz".

Bəzi saytların, xüsusən agentliklərin həm onlayn televiziya, həm də sayt kimi fəaliyyət göstərməsinin necə tənzimlənəcəyinə dair suala cavab olaraq isə MTRŞ-dən bildirilib ki, yeni qanun layihəsinə əsasən, sayt və informasiya agentliklərinin qeydiyyatını Medianın İnkişafı Agentliyi həyata keçirəcək: "Bunun üçün lisenziya alınmasına ehtiyac yoxdur. Məsələn, APA həm onlayn media, həm informasiya agentliyi kimi Medianın İnkişafı Agentliyindən qeydiyyatdan keçərək fəaliyyət göstərə biləcək, eyni zamanda APA TV Şuraya müraciət edərək lisenziya alaraq platforma yayımçısı kimi tanınacaq. Bu zaman APA-nın hər bir redaksiyası (audiovizual media olaraq APA TV, onlayn media olaraq apa.az saytı, informasiya agentliyi olaraq isə APA İA) Media reyestrinə daxil ediləcək".

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Şərq"ə internet televiziya kanallarına qoyulan tələblər barədə danışıb.** O qeyd edib ki, görünür ki, Milli Televiziya və Radio Şurası yenidən İnternet TV-lərin lisenziyalaşması məsələsini gündəmə gətirmək niyyətindədir: "Uzun müddət idi ki, bu məsələ müzakirədən çıxarılmışdı. Təəssüf ki, bugünkü açıqlamadan görünən odur ki , MTRŞ "Media haqqında" qanunda tezlikdən istifadə etməyən internet TV-lərin lisenziyalaşması ilə bağlı məcburedici müddəalar daxil etmək niyyətindədir. Bununla əlaqəli "sadələşdirilmiş lisenziya" ifadəsini daxil etmək istəyir. Ümumiyyətlə, dövlətə məxsus olan məhdud tezlik resursundan istifadə etməyən, açıq şəbəkədə yayımlanan TV-nin lisenziyaşdırılması məntiqə uyğun deyil, beynəlxalq normalara da ziddir. Xüsusilə də internet TV hesab olunmaq üçün MTRŞ-nin texnologiyanın, sosial medianın indiki inkişafı dövründə qanuna təklif etmək istədiyi "yalnız sayt üzərindən yayım" və "müəyyən yayım saatı" müddəaları ağlasığmaz və absurddur".

O.Gündüz hesab edir ki, MTRŞ yeni medianın inkişafına yönəlik və beynəlxalq normalara uyğun addımlara üstünlük verməlidir: "Təəssüf ki, indiki halda MTRŞ-nin ilkin açıqlamaları internet medianın inkişafı ilə bağlı müəyyən narahatçılıqlar yaradır".

**Aynurə Pənahqızı**



# Həcc ziyarətinin təşkili mərkəzləşdirilir

*Bütün səlahiyyətlər QMİ-yə verilir, bu bahalaşmaya gətirib çıxaracaq*

Prezident İlham Əliyev "Dini etiqad azadlığı haqqında" qanuna dəyişikliklə bağlı qanunu təsdiqləyib. Qanunla kütləvi dini ibadət, ayin və mərasimlər (dəfn, yas, iftar, kəbinkəsmə, mövlud və ehsan mərasimləri istisna olmaqla) dini ibadət yerlərində və ziyarətgahlarda keçiriləcək.

Kütləvi dini ibadət, ayin və mərasimlər (dəfn, yas, iftar, kəbinkəsmə, mövlud və ehsan mərasimləri istisna olmaqla) dini ibadət yerlərindən və ziyarətgahlardan kənarda yalnız Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə təşkil olunacaq. Xarici ölkələrdə yerləşən və müvafiq din üçün müqəddəs hesab edilən yerlərə ibadət məqsədilə dindarların mütəşəkkil şəkildə ziyarətləri müvafiq dini mərkəzlər (idarələr) tərəfindən həyata keçiriləcək və bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə məlumat veriləcək.

**Qanunla bağlı dini ekspert Kənan Rövşənoğlu "Şərq"ə danışıb. O bildirib ki, "Dini etiqad azadlığı haqqında" qanuna bir sıra əlavə dəyişikliklər edilib. O cümlədən də azyaşlıların dinə məcbur edilməsinin qadağan olunması ilə bağlı da dəyişikliklər bu qanunda öz əksini tapıb:** "Qeyd edim ki, yeni qanunda ziyarətlərin təşkili, din xadimlərinin seçkili və təyinatlı dövlət orqanlarına seçilib və ya təyin olunması kimi maddələr də var. Bəzi dəyişikliklər müzakirə və mübahisələrə səbəb olub, xüsusən də uşaqların dinə məcbur edilməsi maddəsi. Çünki qanun valideynlərin uşaqlarını öz inanclarına uyğun tərbiyə etməsi haqqı tanısa da, məcburetməni qadağan edir. Amma bu qadağanın və ya məcburiyyətin müəyyən olunması mexanizmi yoxdur. Bir çox dindar düşünür ki, bu maddə uşaqların məscidə aparılmasına, başörtüyü kimi mövzularda qadağalara səbəb ola bilər. Lakin qanunda məcburetmənin kim tərəfindən və hansı meyarla müəyyən olunması yoxdur".

Ziyarətgahlar məsələsinə gəlincə isə ekspert vurğulayıb ki, Həcc ziyarəti 2009-cu ildən yalnız bir orqana - QMİ-yə verilib: "Yeni qanun güman ki, nisbətən sərbəst olan Məşəd və İraq (Kərbəla. Nəcəf və sair) ziyarətgahlara ziyarətlərin təşkilini mərkəzləşdirir. Bu hüquq QMİ-yə verilir. Bu da bu sahədə bir tərəfdən nizam-qayda yaratmasına səbəb olacaqsa, digər tərəfdən ziyarət qiymətlərində bahalığa səbəb olacağı ilə bağlı narahatlıq yaradır. Bu dəyişikliklərin hansı nəticəni verəcəyini yaxın zamanda görəcəyik".

**Aynurə Pənahqızı**

# Günay Bəndəliyeva qəhrəmanlarımızla fəxr edir

*"Şəhid və qazilərimizlə bağlı şəkillər çəkməkdən qürur duyuram"*



Hərbi Qənimətlər Parkı Azərbaycanın 44 günlük Vətən müharibəsində düşmən üzərində zəfərin rəmzinə çevrilib. İnsanlar böyük sevinc və maraqla Parkı ziyarət edir, ordumuzun sanki düşmənə vurduğu zərbələrin nəticələrinə tamaşa edirlər. Eyni zamanda burada zəfərimizin şərəfinə müxtəlif tədbirlər, təqdimat və sərgilər təşkil olunur.

"Biz zəfər qazandıq! respublika onlayn rəsm müsabiqə-sərgisi"nin qaliblərinin mükafatlandırılması mərasimi də Hərbi Qənimətlər Parkında keçirilib. Təhsil Nazirliyi tərəfindən 3 yaş (6-9, 10-13, 14-17) qrupu üzrə keçirilən müsabiqə-sərgiyə ümumilikdə 1127 rəsm işi daxil olub. Sərgiyə təqdim olunmuş əsərlər Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Hüseynov və Azərbaycan Rəssamlar İttifaqının üzvü Bəşirova İnna Viktorovna tərəfindən qiymətləndirilib.

Onlayn rəsm müsabiqə-sərgisində ikinci yerin qalibi Günay İlqar qızı Bəndəliyeva seçilib. Günay Bəndəliyeva 2007-ci ilin 18 oktyabrda Bakı şəhərində anadan olub. Bakı şəhər, 83 saylı məktəb liseyin IX sinif şagirdidir. Günay Bəndəliyevanın rəsmə böyük həvəsi var. Əsas amalı gələcəkdə bu peşənin bütün incəliklərini öyrənib peşəkar rəssam olmaqdır. O, bu vaxta kimi müxtəlif mövzularda şəkillər çəkib. Xüsusən vətənpərvərlik mövzusuna daha çox maraq göstərir.

Qalibi olduğu müsabiqə-sərgi ilə bağlı təəssüratları bunu bir daha aydın göstərir: "Belə müsabiqə-sərgilər biz məktəbli və yeniyetmələrdə vətənə, torpağa məhəbbət hisslərinin artırılmasında böyük rol oynayır. Torpaqlarımızın işğaldan azad edilməsi ilə biz dövlətimizin və ordumuzun gücünü bir daha gördük. Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın əziz xatirəsini ehtiramla yad edirik. Vətən müharibəsindəki uğurlarımız, şəhid və qazilərimizlə bağlı şəkillər çəkməkdən qürur duyuram. Böyük fəxr hissi ilə onların qəhrəmanlıqlarını təsəvvürümdə canlandıraraq rəsmlərini çəkirəm. Cənab Ali Baş Komandan İlham Əliyevin dediyi kimi - Qarabağ Azərbaycandır! Artıq bu şüar hər bir soydaşımızın, o cümlədən biz məktəblilərin də beyninə həkk olunub. Prezidentimizlə fəxr edirik. Ordumuzla qürur duyuruq! Fəxr edirik ki, azərbaycanlıyıq!".



**İsmayıl**

# Birgə qərar veriblər

*Zamiq və Röya duet oxuyacaqlar*



Müğənnilər Zamiq Hüseynov və Röya Ayxan duet mahnı ifa edəcəklər.

”Şərq” xəbər verir ki, Zamiq bu barədə ”MTV Azərbaycan”a açıqlamasında danışıb. O, mövzu haqda bunları söyləyib: ”Dostlarla yığışmışdıq. Dedilər ki, çox ara vermisiniz, birgə duetləriniz yaxşı alınır, dinləyicilər də sizi gözləyir. Biz də qərar verdik. Çox qısa müddətdə - 10 gün ərzində mahnını hazırladıq. Həm lirikdir, həm də yaxşı mənada baş oynadandır. Məncə, hit olacaq. Yeni üslubdadır. Klip çəkilişində rejissorun işinə qarışmadım. Hər klipin öz fəsli var. Hətta qışda da çəkiliş edəndə, deyirəm çox qalın geyindirməyin. Çünki havalar isinsə, klipi yayımlaya bilmərik. Rejissorla fikirlərimizi bölüşürük. Amma iş vaxtı nəsə söyləmirəm. Ölümlə bağlı bir şey deyə bilərəm”.

**Sənətçi nə vaxtsa hansısa bir klipinin rejissorluğunu özünün edə biləcəyini deyib:** ”Bir dəfə klipdə səhnəni mən qurmuşdum, geyimləri də özüm seçmişdim. Rejissorla birgə etmişdik. Bundan sonra da belə olacaq. Pandemiya ilə əlaqədar konserti reallaşdıra bilmədik. Hazırda restoronlarda konsertlər olar. Təbii az insanla və sosial məsafəni qorumaq şərti ilə mümkündür. Lakin icazə verilsə, ”Yaşıl teatr” və Heydər Əliyev adına sarayda sevgi ilə çıxış edən insanlardan biri olaram. Heydər Əliyev sarayını çox sevirəm. Azərbaycanın ən möhtəşəm və mötəbər konsert zallarından biridir. Orada da çıxış etmişəm. Bundan sonra da orda olmasını istərdim”.

**Samirə Ərəblinski**

## “Bütün günü tərifləyən adam, birdən məni təhqir etdi"

Manaf Ağayev: “Oğlum dedi ki, ata, o hamıya ”ilişir””



**Müğənni Manaf Ağayev ”Söhbət var” verilişində qonaq olarkən başına gələn bir hadisədən söz açıb.**

**”Şərq” xəbər verir ki, o, sözügedən proqramda bunları söyləyib:**

”Baloğlan Əşrəfovu dəfn edib evə gəldik. Qanım it qanına dönmüşdü. Dalaşmağa adam axtarırdım. Mənə bir status göndərdilər. Hamının tanıdığı ifaçılardan biri yazıb: ”Müğənnilərimizi itirə-itirə gedirik. Cavanşir Məmmədovla, Manaf Ağayev dünyasını dəyişsə, maraqsız olacaq”. Özü də bütün günü məni tərifləyən adamdır. Cavanşir zəng etdi ki, onunla danışdım, təhqir etdim. Söylədim ki, mənim söyüşlə işim yoxdur. Üz-üzə söhbət edəcəm. İnanın yalvarırdı. Dedim, utanmırsan, axı övladların var? Niyə belə edirsən? Qayıtdı ki, burada nə var ki?! Sonra oğlum dedi ki, ata, o hamıya ”ilişir”.

**Samirə**

## Nazim oğlunu evləndirir

Toylara icazə verilən kimi mərasim baş tutacaq



**Müğənni Nazim Pişyarının ailəsində şad gün olacaq.**

”Şərq” xəbər verir ki, ifaçı ”Söz Baz” verilişinə açıqlamasında oğlunu evləndirəcəyini söyləyib:

”Toylara icazə verilsin. O zaman çox gözləməyəcəm. Birdən pandemiya yenindən yayılar. Ona görə dərhal toy edəəcm. Hər valideynin olduğu kimi bizim də övladımızın toyunu görmək arzumuz var”.

Sənətçi pandemiya dövründə maddi cəhətdən çətinliklər yaşadığını xüsusi vurğulayıb: ”Heç bir vəsait əldə etməmişəm. Öz yığdığımız pulla dolandıq. Çox pul xərcləmədik. Birtəhər yola verdik. Yaradıcı insanı qapalı saxlamaq mümkün deyil. Biz belə bir il yaşadıq. Bu ab-havada, qadağaların olduğu bir zamanda nə edə bilərik. Biz sındıq.

**Samirə**

## Zamiq Hüseynov xəsisdir

Klarnet ifaçısı şou əhlindən danışıb



**Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu şou əhli haqda danışıb.**

”Şərq” xəbər verir ki, o, müğənni Abbas Bağırovun əliaçıq olduğunu söyləyib: ”Zamiq Hüseynov bir az əliaçıqdır. O çox yığımcıldır. Yaxın günlərdə müsahibə verib ki, yığdıqlarımızın hamısını satmışıq. Mən inanmıram. Yalan deyir. Satdığı nə olubsa, xəbərim yoxdur. Elton Hüseynəliyev də əliaçıqdır”.

**Samirə**

# “Mən xına işi ilə məşğul olmuram”

*Xatirə İslam aparıcıya xəbərdarlıq etdi*

"Mətanət xanım, mən xına işi ilə məşğul olmuram. Yalnız məclislərdə ifa edirəm. O, çətin işdir. Bu qiymətlər, məbləğ sizdə haradan idi? Əslində sizə zəng edib deyə bilərdim. Arada danışırıq axı. Efirdə danışdığınız üçün mütləq cavab belə olmalıdır. Mətanət xanım, arada özümüzü yeniləmək lazımdır. Bəlkə 10 il əvvəl zəng etmisiniz".

”Şərq” xəbər verir ki, bu sözləri müğənni Xatirə İslam instaqramda paylaşdığı videoda söyləyib. O, fikirlərinə bunları da əlavə edib: ”Bütün verilişlərin aparıcılarına səslənirəm, əzizlərim, mənim olmadığım yerdə adımı çəkməyin. Dönə-dönə xahiş edirəm. Aramızdakı hörmət, izzət uzun ömürlü olsun. Ümumiyyətlə, dəvət edəndə gəlmirəmsə, kim nə istədi danışmalıdır?! Bəs peşəkarlıq, illərin salamı? Mətanət xanımı çox sevirəm. Yatsam, yuxuma girməzdi ki, o, nəsə araşdırmadan açıqlama verər. Mən xına tərtibatı etmirəm. Buna zamanım çatmır”.





*Xatırladaq ki, Mətanət Əliverdiyevanın aparıcısı olduğu ”6/8 axşam şousu”nda Xatirə İslamın xınayaxdı məclislərinə 1500-5000 manata getdiyi söylənilib.*

**Samirə**

# Sevda hazırlıqlarına başlayıb

*Müğənni toyunda iki gəlinlik geyinəcək*



"Onda görüşək" proqramında qonaq olan müğənni Sevda Yahyayeva toy hazırlıqlarından bəhs edib.

”Şərq” xəbər verir ki, Sevda toyunda iki paltar geyinəcəyini söyləyib:

”Birini yerli dizaynerimiz, digərini isə türkiyəli məşhur modelyer Muammer Kətançı hazırlayacaq”.

M.Kətənçi isə ”MTV Azərbaycan”a müğənninin gəlinlik paltarı haqda məlumat verib: ”Həyat yoldaşı ilə birgə gəldilər. Bədən ölçülərini götürdüm. O da bütün dizaynı mənim öhdəmə buraxdı. Dedi, nə istəyirsiniz edin, geyinəcəm. İki ay üzərində işlədik. Bitirdik və çox gözəl gəlinlik libası oldu. Pandemiya ilə əlaqədar onlar da toylarını təxirə saldılar. Böyük ehtimalla bu yay sonuna doğru toyu olacaq. Mən də dəqiq bilmirəm. Gəlib, bir dəfə geyinib yoxlayacaq. Əslində sənətçilər kaprizli olur. Sevda belə deyil. Mənim üçün əsl xanımdır. Cazibə, kübarlıq, gözəllik hamısı onda birləşib”.

**Samirə**

# TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Xaçmaz rayon İcra Şöbəsinin 18 may 2021-ci il tarixli, 355/20 saylı sifarişi ilə, Xaçmaz rayonu, Köhnə-Xaçmaz kəndində yerləşən 0.80 ha, 0.20 ha, 0.10 ha və 0.39 ha kənd təsərrüfatı və Xaçmaz rayonu, Müqtədir qəsəbəsində yerləşən 0.06 ha həyətyanı torpaq sahələrinə dair 16 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahələri ilkin satış qiyməti olan (0.80 ha torpaq sahəsi) 20.000 (iyirmi min) manatdan 10% aşağı olmaqla, yəni 18.000 (on səkkiz min) manata; (0.20 ha) 12.000 (on iki min) - 10.800 (on min səkkiz yüz) manata; (0.10 ha) 10.000 (on min) - 9.000 (doqquz min) manata; (0.39 ha) 24.000 (iyirmi dörd min) - 21.600 (iyirmi bir min altı yüz) manata; (0.06 ha) 3.000 (üç min) - 2.700 (iki min yeddi yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 01 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni (0.80 ha) - 900 (doqquz yüz) manat; (0.20 ha) - 540 (beş yüz qırx); (0.10 ha) - 450 (dörd yüz əlli); (0.39 ha) - 1.080 (bir min səksən); (0.06 ha) - 135 (bir yüz otuz beş) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

10) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

11) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır.

Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

# Tatlısəs ürəyindən əməliyyat olundu



**Müğənni İbrahim Tatlısəsin səhhətində problem yaranıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, sənətçi damar tıxanıqlığı səbəbilə əməliyyat olunub.

Tatlısəsin ürəyinə stend taxılıb. Gizli keçirilən əməliyyatın ardından Tatlısəsin səhhətinin yaxşı olduğu bildirilib.

**Məlumat**

Bakı şəhəri Suraxanı rayon İcra Şöbəsinin 21.05.2021-ci il tarixli sifarişi üzrə, "VAZ-21214" markalı, 90-VR-561 dövlət qeydiyyat nişanlı avtomobilə dair 17 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

**"Əmlak Hərrac Mərkəzi" MMC**

**Məlumat**

Şəmkir rayon İcra Şöbəsinin 07.05.2021-ci il tarixli, 139089/2020-121693/21 saylı sifarişi üzrə, çəkisi 23 qram olan bir ədəd qolbağı və bir ədəd tros sepə dair 17 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

**"Əmlak Hərrac Mərkəzi" MMC**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# At belində xərçəng ovu...

15 balıqçı 500 illik ənənəni yaşadır

*(Əvvəli səh: 16-da)*



**Təlim görmüş atlarına minir, səbətləri əllərinə alıb atın arxasınca sahil boyu sürüyürlər.**

Səbətlər yerlə süründükcə xərçənglər də səbətlərə dolmuş olur. Balıqçılar ov üçün əl-ayaq yığılan vaxtı seçirlər. Elə bir vaxt ki, sahildə kimsə olmasın. Ya sübh tezdən, ya da axşam saatlarında ova çıxırlar. Səbətlərə hər cür dəniz canlısı toplana bilir. Balıqçılar səbətdəkiləri sonra ayırd edir, yaxalamaq lazım gəlməyən canlıları təkrar dənizə buraxırlar. Xərçəngin bol olduğu vaxt aprel ayından oktyabr ayınadək olan dövrdür. Lakin balıqçılar dəniz səthi buz tutmayıbsa, hər vaxt ova çıxa bilir. Bu ənənədən artıq çox az adam istifadə edir. 15-ci əsrdə isə at belində xərçəng ovu Fransa, Niderland, İngiltərənin cənubundakı Şimal dənizi sahillərində məşhur idi. İndi isə bu balıqçı ənənəsindən yalnız Oostduinkerkdə yalnız 15 balıqçı tərəfindən istifadə olunur. Balıqçılar ənənənin itməsini istəmir. Buranın sahil boyu ərazisi də at belində xərçəng ovu üçün münasibdir. Ənənə dənizlərə olan hörmət və yerli xalqa gətirdiyi mədəni miras səbəbiylə YUNESKO-nun mədəni irs siyahısına daxil edilib.

**Məlahət**

# Van Dammın oğlu azərbaycanlı pianoçu ilə evlənib

Kristoferin paylaşdığı şəkil gündəm oldu



**Dünyaca məşhur aktyor Jan Klod Van Dammın oğlu Kristofer azərbaycanlı pianoçu Suada Hacızadə ilə evlənib.**

Nişan mərasimindən foto sosial şəbəkədə yayılıb. Eyni zamanda Suada və Kristofer İnstaqram profilində münasibətdə olduqlarını yazıblar.

Suada pianoçudur və bir çox beynəlxalq müsabiqələrdə Azərbaycanı təmsil edib. O, eyni zamanda Prezident təqaüdçüsüdür, 7 Beynəlxalq Musiqi Müsabiqəsinin laureatıdır. 21 yaşı var.

34 yaşlı Kristofer aktyor kimi bir çox filmlərdə rol alıb. O, Van Dammın aktrisa Qledis Portuqezdən dünyaya gələn oğludur. *Evlilikdən sonra Kristafor Van Dammın 44 günlük Vətən müharibəsi zamanı paylaşdığı foto gündəm olub. Belə ki, o müharibə zamanı Azərbaycana dəstək olub və dünyaya çağırış edib.*


Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1072



# At belində xərçəng ovu...

15 balıqçı 500 illik ənənəni yaşadır



**Belçikanın şimal sahillərində balıqçılar 500 illik ənənəni yaşatmaq üçün ağır şərtlər altında çalışırlar.**

"Şərq" "Milliyət"ə istinadən bildirir ki, bu gələnək çox az adam tərəfindən istifadə olunur. Lakin bölgə camaatı demək olar ki, məhz bu ənənə sayəsində gəlir əldə edirlər. Bu, at belində xərçəng ovudur. Balıqçılar ov üçün atlara xüsusi təlim keçir, atları bu işə alışdırırlar.

*(Davamı səh: 15-əd)*

**Məlahət**

# Sahibi şokdadır

Yandırdıqları pişik geri döndü!



**16 yaşlı "tekir" cinsindən olan "Frankie" adlı pişik bu ilin may ayının 19-da Birləşmiş Krallığın Varrinqton bölgəsində ortadan itib.**

Pişiyin sahibləri dərhal axtarışa başlayıb və bir neçə gün sonra M6 şosesində "Frankie"yə bənzəyən bir pişiyin cəsədini tapıblar.

İngiltərə yol polisi heyvanı götürərək yandırılması üçün sahibinə təslim ediblər. Lakin "Frankie" bir neçə gün sonra evə dönüb. Pişiyin sahibi Rachel Fitzsimons, BBC-yə açıqlamasında bunları söyləyib:

"Sonra evə döndü, aç və zəif olsa da salamat idi. Yəni başqa birinin pişiyinin ölüsünü yandırmışdıq."

"Frankie" təkrar ortaya çıxan zaman Fitzsimonsun 7 yaşlı oğlu Remy, "Bu bir möcüzə. Öldüyünü sanırdıq" deyib.

**Turan**

# Qadına təcavüz iddiası doğrulmadı

Seda Sayan Ali Ərbil haqqında dedikləri sözləri təkzib etdi



**Müğənni Seda Sayan şoumen Mehmet Ali Ərbil haqqında dedikləri ilə bağlı növbəti açıqlama verib. Daha əvvəl Ərbilin evində çalışan bir qadına təcavüz etdiyini iddia edən Seda yanlış sözlər dediyini bildirib.**

"Ünvanıma deyilən ağır təhqirlərdən sonra əsəbi halda təcavüz sözünü dilimə gətirdim. Böhtan deyil, yanlış açıqlamadır" deyə, müğənni açıqlamasını təkzib edib.

*Qeyd edək ki, onlar arasında qalmaqal Ərbilin Tolga Yücenin "Keçmişi bir az daha təmiz olsaydı iftar proqramı da aparardı. Halal olsun, telekanallar reytinq verməyən bu qadını hələ də işlədir" sözlərindən sonra başlayıb. Şoumen daha sonra bu açıqlamanı verməsinin səbəbinin Sayanın 2 ildir onu itirib-axtarmaması olduğunu deyib. Sayan isə onu evində çalışan qadına təcavüz etməkdə günahlandırıb.*




# AZAL-da ilk qadın pilotlar işə başladı

*Cəsarətli və ürəkli xanımlar bura qədər uzun və çətin bir yol keçiblər*





**Azərbaycan Hava Yolları aviaşirkətində ilk qadın pilotlar işə başlayıb.**

"Şərq" xəbər verir ki, bununla bağlı aviaşirkət videogörüntü paylaşıb.

"Bu videoda AZAL-ın pilotu olmağı hədəfləyən cəsarətli və ürəkli xanımların hekayəsinin yalnız kiçik bir hissəsini göstərdik. Bu xanımlar uzun və çətin bir yol keçdilər: bu peşənin əsaslarını Azərbaycan Milli Aviasiya Akademiyasında öyrəndilər, bütün imtahanları əla qiymətlərlə verdilər və yekun praktik sınaqlardan uğurla keçdilər. Bu gün bu gözəl qadınlar hava gəmilərində daxili və beynəlxalq uçuşları həyata keçirən AZAL-ın yüksək səviyyəli pilotlarıdır", - məlumatda bildirilib.

**Aynurə**



# Dağıntılar altındakı insan harayını eşidəcək

Yeni sistemdən zəlzələ, fəlakətlər zamanı istifadə olunacaq





**Alimlər tərtib etdikləri sistemi ABŞ Akustik Topluluğunun illik konfransında təqdim ediblər.**

Bu sistem məhz dronlar üçün işlənib və əsas üstünlüyü insan səslərini ayırd edə bilməsidir. Alimlər bildirib ki, sistemin yaradılmasında məqsəd dronların dağıntılara məruz qalan binalardan gələn qışqırıq, bağırtı, haray səslərini təsbit etməsidir. Bunun sayəsində dronlar çığırtı, bağırtı gələn tərəfə istiqamət alacaq. Və ərazidə nə baş verdiyi, dağıntılar altında qalan insanların yerini müəyyənləşdirə biləcək. Sistemdən xilasetmə qrupları da yararlana bilər. Hansısa bir fəlakət yaşandıqda itkin insanları tapmaq, yerlərini təsbit etməkdə hər dəqiqə önəmlidir. "Şərq" Türkiyə mediasına istinadən bildirir ki, Böyük Britaniya mətbuatı bu məsələyə geniş yer ayırıb və gələcəyi türk istehsalı dronların müəyyənləşdirəcəyi uzun zamandır danışılır. B.Britaniya mediasındakı məlumatlar türk dronlarının indiyədək tarixdə görünməmiş bacarıqlara sahib olduğunu ortaya qoyur. İngilis mətbuatı yazır ki, türk istehsalı dronlar partlayıcı daşıya bilir və kamikadze xüsusiyyətinə malikdir, beynəlxalq terrorizmlə mübarizəyə də cəlb edilir.

**Məlahət**



# Sevgiləri 3 ay çəkdi

**"Bir zamanlar Çukurova" serialında sevgili obrazını canlandırdıqdan sonra eşq yaşamağa başlayan Melike İpək Yalova ilə Furkan Palalı ayrılıb.**

Axşam.az xəbər verir ki, cütlük biri-birini sosial şəbəkədən silib. Onlar dostlarına fikir ayrılığı səbəbi ilə ayrıldıqlarını söyləyiblər.

*Qeyd edək ki, məşhurlar apreldə münasibətə başlamışdılar.*